# HƏYAT BİLGİSİ

## DƏRSLİK



3

Layihə

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

GÜLƏR MEHDİYEVA

Ümumi təhsil müəssisələrinin

# Həyat bilgisi

**3**-cü sinifləri üçün

fənni üzrə **DƏRSLİK**

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

“ASPOLİQRAF”

LAYİHƏ

## KİTABIN İÇİNDƏKİLƏR


### BİZ ÜÇÜNCÜLƏRİK

1. Biz necə davranmalıyıq? ................6
2. Uşaqların hüquqları necə qorunur? ..................................8
3. İntizama dəvət ..............................9
4. Əsl dost.......................................11
5. Həyatimizin uşaqları ....................13
6. Nəzakət.......................................15

### SAĞLAMLIĞIMIZI QORUYAQ

7. Faydalı və zərərli vərdişlər ...........18
8. Çətin vəziyyətə düşəndə..............20
9. Məişətdə ....................................22
10. Qida zəhərlənmələri ..................24
11. Mövsümi xəstəliklər ..................26
12. Səyahət edərkən........................28
13. Texnogen hadisələr....................30
14. Yanğından mühafizə vasitələri...32
15. Şəkil və plan...............................34

### YER KÜRƏSİ – EVİMİZ

#### BİZİ ƏHATƏ EDƏN TƏBİƏT

16. Dünya okeanı .............................38
17. Materiklər və adalar ..................40
18. Yerin hava təbəqəsi....................42

#### TƏBİƏT HADİSƏLƏRİ

19. Külək necə yaranır? ...................44
20. Yer kürəsinin hərəkəti................46
21. Rənglər ......................................49
22. Təhlükəli təbiət hadisələri .........51

### CANLILAR ALƏMİ

23. Mikroorqanizmlər......................54
24. Göbələklər .................................56
25. Ağac əkməyə gedirik..................59
26. Heyvanların müxtəlifliyi .............62
27. İnsan ətrafı necə dərk edir? .......65

### AZƏRBAYCAN – YURDUM MƏNİM

28. Qədim Azərbaycan......................68
29. Azərbaycan Respublikası............70
30. Azərbaycan ordusu ....................72
31. Qonşularımız .............................74
32. Azərbaycanın təbiəti..................76
33. Doğma Xəzər .............................78
34. Bol nemətli yurdumuz ...............80

### DƏYƏRLƏR

35. Biz birlikdə güclüyük .................84
36. Qayda və qanun.........................86
37. Dünya dinləri .............................88
38. Ailə büdcəsi ...............................90
39. Xalqların ünsiyyət qaydaları.......92
40. Yay tapşırıqları ...........................94


---

**Dərslikdə istifadə olunmuş şərti işarələr**


Motivasiya


Düşünək




İcra edək


Sual və tapşırıqlar


Təcrübə edək

Maraqlıdır


Hikmətli sözlər

Layihə

# BİZ ÜÇÜNCÜLƏRİK



1. Biz necə davranmalıyıq?
2. Uşaqların hüquqları necə qorunur?
3. İntizama dəvət
4. Əsl dost
5. Həyətimizin uşaqları
6. Nəzakət

LAYİHƏ

## 1. BİZ NECƏ DAVRANMALIYIQ?



***Yollarda qoyulan nişanlara fikir vermisinizmi? Bu nişanlar həm piyadalara, həm də sürücülərə çox kömək edir.***

İlk dərs gününü uşaqlar, valideynlər, müəllimlər səbirsizliklə gözləyirlər. Həmin gün sinif yoldaşlarımızla, müəllimimizlə yenidən görüşürük. Artıq böyümüşük. Yolu keçərkən əlimizdən tutmurlar. İctimai nəqliyyatda davranış qaydalarına əməl edirik, çünki başqa sərnişinlərin rahatlığını pozmaq istəmirik.



***Nəqliyyatda davranış qaydalarını izah edin.***

Yolu yalnız piyada keçidlərindən keçirik. Yolun kənarında dayanıb işıqforun piyadalar üçün yaşıl işığının yanmasını gözləyirik. İşıqfor olmayan yerlərdə piyada zolağını keçərkən daha ehtiyatlı oluruq.

Birazdan məktəbə özümüz sərbəst gedib-gələcəyik, ona görə də yol hərəkəti qaydalarını və yol nişanlarının mənasını öyrənməliyik.

Yollarda xəbərdarlıq, qadağan, servis və digər nişanlar qoyulur.

***Xəbərdarlıq nişanları*** yolda təhlükə barədə məlumat verir. Bu nişanlar, əsasən, qırmızı haşiyəli ağ üçbucaq formasında olur.

Yolda qırmızı haşiyəli dairə formasında nişan görsən, bil ki, bu, ***qadağan nişanıdır***. Qadağan nişanları qoyulduğu yerlərdə müəyyən hərəkəti (məsələn, girişi, piyadaların, yaxud avtomobillərin hərəkətini və s.) qadağan edir.

***Servis nişanları*** yaşayış məntəqələrində insanların yolda ehtiyac duya biləcəkləri yerlərin (yeməkxana, xəstəxana, yanacaqdoldurma məntəqəsi, polis idarəsi və s.) yanında və ya onların istiqamətində quraşdırılır. Servis nişanları düzbucaq formada olur. Onların enli mavi haşiyəsi vardır. Ağ fon üzərində müxtəlif işarələr təsvir olunur. Məsələn, yeməkxanaya aid servis nişanı üzərində çəngəl-bıçaq təsir edilir.

***Məlumatverici-göstərici nişanların*** düzbucaq forması vardır. Bu nişanlar yolun vəziyyəti, yaşayış məntəqələrinin adları və başqa məlumatları bildirmək üçün qoyulur.

LAYİHƏ

# *Yol nişanları*



**xəbərdarlıq nişanları**



*Bu nişanlar nəyi xəbər verir?*



*Bu nişanlar nəyi qadağan edir?*



**qadağan nişanları**



**servis nişanları**




**məlumatverici nişan**



*Bu nişanlar nə ilə bağlıdır?*



*Bu nişanın verdiyi məlumatları izah edin.*



*1. Piyadalar üçün işıqfor olmayan yerlərdə yolu necə keçmək olar?*
*2. Tanıdığınız yol nişanlarını sadalayın və onların mənasını açıqlayın.*

LAYİHƏ

## 2. UŞAQLARIN HÜQUQLARI NECƏ QORUNUR?



***Ölkəmizdə və dünyada uşaqların hüquqlarının qorunmasına xidmət edən sənədlər var. Bunlar hansı sənədlərdir?***



***Uşaqların hansı hüquqları var?***

Uşaqların da böyüklər kimi eyni hüquqları vardır çünki uşaqlar da böyüklər kimi tamhüquqlu insandır.

Hələ balaca olduqlarına görə uşaqlar xüsusi qayğı və yardıma ehtiyacları duyurlar. Bu səbəbdən onların insan hüquqlarını müdafiə edən ayrıca sənədlər var.



Uşaqların sağlam olması, təhsil alması, hər cür zorakılıqdan qorunması üçün ölkəmizdə ***"Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu"*** qəbul edilmişdir. ***"Uşaq Hüquqları Konvensiyası", "Uşaq Hüquqları Bəyannaməsi"*** adlı sənədlər isə bütün dünyadakı hər bir uşağın hüquqlarının qorunması üçün yaradılmışdır. Belə sənədlərə beynəlxalq sənədlər deyirlər. Bu sənədlərdə deyilir ki, hansı yaşda olmasından asılı olmayaraq uşaqlarla hörmət və ləyaqətlə davranılmalıdır. Qızlara, oğlanlara, əlil uşaqlara eyni imkanlar verilməlidir.

Biz öz hüquq və vəzifələrimizi öyrənir, böyüyüb yaxşı insan olmaq üçün əlimizdən gələni edirik.



***1. Uşaq hüquqlarına aid sənədləri sadalayın.***

***2. Esse yazın: "Uşaqlara qayğı hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur".***

***Heydər Əliyev***

LAYİHƏ

## 3. İNTİZAMA DƏVƏT



***Sizcə, qaydaları pozan uşaqları intizama kim dəvət etməlidir?***

Çoxunuz deyə bilərsiniz ki, bunu böyüklər etməlidirlər. Əslində belə deyil. Uşaqların bir-birinə, hətta böyüklərə də öz tənqidi fikrini bildirməyə haqqı var.










Dostlarınızın sizə irad bildirməsinə normal yanaşmaq lazımdır. İrad haqlıdırsa, minnətdar olmalısınız ki, səhvinizi düzəltməkdə sizə kömək etmək istəyirlər. Siz də dostunuzun səhv hərəkət etdiyini görəndə ona iradınızı bildirməlisiniz. Dostluqda bu, vacib şərtdir. Əgər dostunuzun sizi tənqid etməsindən xoşlanmırsınızsa, yaxud ona səhv etdiyini deməyi lazım bilmirsinizsə, demək, sizin dostluğunuz möhkəm deyil.

İnsanlar bir-birindən çox şey götürürlər. Məsələn, ailədə kiçiklər böyüklərdən öyrənirlər. Məktəbdə, həyatda müxtəlif yaşda uşaqlar var və onlar bir-birinin davranışlarından nümunə götürürlər. Həmişə yadda saxlayın ki, yaşca kiçik olan uşaqlar sizdən öyrənirlər. Ona görə də qaydalara əməl edib, yaxşı nümunə göstərməyə çalışmalısınız. Bu cür hərəkət etməklə siz ətrafınızda sağlam mühitin yaranmasında və qorunmasında iştirak etmiş olursunuz. İnsanlar arasında sağlam mühit bir-birinə hörmət və qayğı ilə yanaşmaq, nizam-intizamı qorumaq deməkdir.

LAYİHƏ

Hər bir insan ətrafındakılara hörmət və qayğı ilə yanaşmalı, onların səhv hərəkətlərinə biganə qalmamalıdır. İnsan olduğu hər yerdə nizam-intizamın qorunması üçün məsuliyyət daşıyır.





*1. Mətndən çıxardığınız nəticəni izah edin.*
*2. Şəklə aid hekayə qurun.*
*3. Nizami Gəncəvinin sözlərinin mənasını açıqlayın.*

*Öz adına layiq işlər gör ki sən,*
*Axırda utanma xəcalətindən.*
*Nizami Gəncəvi*



LAYİHƏ

# 4. ƏSL DOST



Mən dostlarıma həmişə kömək edirəm. Bu gün bir dostumdan kömək istədim, o mənə kömək etmədi.

Mənim əsl dostum yoxdur. Heç kimlə uzun müddət dostluq edə bilmirəm.



## Bu uşaqlardan hansının fikri əsl dostluğu əks etdirir?



Dostum deyir ki, hətta haqsız olsa da, bütün mübahisələrdə mən onun tərəfində olmalıyam.

Rəfiqələrimlə tez-tez mübahisə edirik, amma heç vaxt bir-birimizdən küsmürük.





***Sizcə, əsl dost necə olmalıdır?***

Əsl dost ən böyük xəzinədir. İnsan dostuna güvənir, sirrini etibar edir. Çətinə düşəndə dostdan kömək istəyir, onun köməyinə arxalanır.

İnsanlar bir-biri ilə dost olsalar, çətinliklərin öhdəsindən daha asanlıqla gələrlər. Dostluq güc-qüvvətdir. Dost seçəndə çox diqqətli olmaq lazımdır, çünki özünü dost kimi göstərib, çətin anında dostunu tək qoyan insanlar da var. Belə hərəkət xəyanətdir. Xəyanət dostluğa yaraşmayan keyfiyyətdir.

Bəs əsl dostu necə tanımaq olar?

Əsl dost bu əlamətləri ilə tanınır:

LAYİHƏ



***Əsl dostun daha hansı əlamətlərini söyləyə bilərsiniz?***

1) Həm çətin, həm də xoş gündə insanın yanında olur, hər işdə kömək edir, ruhdan düşməyə qoymur.

2) Hər şeyini dostu ilə bölüşdürməyə hazır olur.

3) Sizin hər hərəkətinizi bəyənən insanı əsl dost hesab etmək olmaz. Dostunun düz hərəkət etmədiyini görəndə səhvini deyir.

4) Başqalarına dostunu pisləməyə imkan vermir.

Dost tapmaq üçün biz özümüz dost olmağı bacarmalıyıq. “Yaxşı dost olanın yaxşı da dostları olar” deyiblər. Dostluq təvazökarlıq, dözüm, nəzakət və sadəlik tələb edir. Belə keyfiyyətləri olmayan insan əsl dost ola bilməz.

Sinif yoldaşlarınızın arasında əsl dost olmağı bacaran uşaqlar var. Sadəcə onları aşkar etməyiniz lazımdır.

***Dostunu göstər, sənin kim olduğunu deyim.***





***1. Sizcə, dostluqda ən vacib keyfiyyət nədir?***
***2. Dost dosta tən gərək,***
***Tən olmasa, gen gərək – atalar sözünün mənasını izah edin.***
***3. Sizcə, dostlarınızı sizə yaxınlaşdıran hansı keyfiyyətinizdir?***



LAYİHƏ

# 5. HƏYƏTİMİZİN UŞAQLARI

***Ətrafdakı insanların hörmətini necə qazanmaq olar? Hekayədə bu sualın cavabı var.***

***Sizdə Sənəmdə olan hansı keyfiyyətlər var?***

Qonşuluqda Sənəm adlı bir qız yaşayır. Mehriban və məlumatlı qızdır. O, yaxşı dama oynayır. Uşaqlar onu dama üzrə həyət çempionu adlandırırlar. Məktəbdə fəaldır. Dəfələrlə olimpiada qalibi olub. Dərslərində çətinliyi olan uşaqlara həvəslə kömək edir. Bütün uğurlarına baxmayaraq heç vaxt Sənəmin lovğalandığını görməmişik. Çox səbirli, sadə və təvazökardır. Sənəm kimi dostumuz olduğuna görə sevinirik.

Qonşuluqda bir uşaq da yaşayır. Əvvəllər ona münasibətimiz yaxşı idi, amma sonra hamımız ondan incidik. O, şəhərimizdə keçirilən idman yarışında yüksək



LAYİHƏ



nəticələr göstərib qaçış üzrə çempion olmuşdu. Bu uğurdan sonra düşündü ki, hamıdan zirək və bacarıqlıdır. Lovğalığına görə biz ondan uzaqlaşdıq.

Bir müddət sonra peşman oldu. Bizdən üzr istədi, barışdıq. O üzr istəməklə əvvəlki hörmətini qaytardı. İndi yenə onunla birlikdə oyunlar oynayırıq.

Bəzi insanlar səhv etdiyini bilir, amma səhvini boynuna almır. Nəyin bahasına olursa olsun haqlı olduğunu sübut etməyə çalışır. Düşünür ki, səhvini boynuna alsa, ətrafındakı insanlar onu zəif hesab edərlər. Səhvini etiraf etmək zəiflik deyil. Əksinə, güclü insan səhvini etiraf etməkdən çəkinmir.



*1. Sadə insan ən çox hansı keyfiyyəti ilə seçilir?*
*2. İzahlı lüğətdən "təvazökarlıq" sözünün mənasını tapıb öyrənin.*
*3. Səhv hərəkətiniz üçün üzr istədiyiniz hallar olubmu? Nümunələr söyləyin.*

LAYİHƏ

# 6. NƏZAKƏT



***Böyüklər həmişə nəzakətli olmağı tövsiyə edirlər. Bilirsinizmi, nəzakətli insanlar necə davranır?***

İncinin babasının zəngin kitabxanası var. Hərdən uşaqlar ondan oxumaq istədikləri kitabı gətirməyi xahiş edirlər. İnci kitabı gətirir, onlar da səliqə ilə oxuyub geri qaytarırlar. Bir dəfə o, Ayaz üçün “Dədə Qorqud” dastanlarını gətirəcəyinə söz vermişdi. Səhəri gün Ayaz yaxınlaşıb İncidən kitabı istədi. İnci kitabı gətirməmişdi. Ayaz dedi:

– Axı sən kitabı gətirəcəyinə söz vermişdin!

İnci ağzını açıb nəsə demək istəyəndə Ayaz onun sözünü kəsdi, “söz verəndə onu yerinə yetirmək lazımdır”, – dedi və üzünü çevirdi.

İnci çox pərt oldu. Ağlamsınaraq qaçıb getdi. Ayazın bacısı Dilarə qardaşının hərəkətini görüb dedi:

–Sən düz etmədin. İnci ilə nəzakətsiz davrandın.



***Dilarə Ayaza nə üçün belə dedi?***

Ayaz dedi:

– O, kitabı gətirəcəyinə söz vermişdi, amma sözünü tutmadı.

Dilarə dedi:

– Dünən İncinin nənəsi xəstələnmişdi, təcili yardım çağırmışdılar. Sonra da xəstəxanaya apardılar. Yəqin bu səbəbdən İnci kitabı gətirə bilməyib. Sən də onu dinləmədən günahlandırdın.

Ayaz hərəkətinə görə çox peşman oldu. Səhəri gün həyətdə yaxınlaşıb nəzakətsiz davrandığı üçün İncidən üzr istədi.



LAYİHƏ

Nəzakətli insanlar sözü və hərəkəti ilə heç kimi incitmir,  insanlarla kobud rəftar etmirlər. Nəzakətli şəxs ona müraciət edən şəxslərə qaşqabaqla deyil, təbəssümlə cavab verir.

Nəzakətli insan həmsöhbətinin sözünü yarıda kəsmir, onu sonadək dinləyir. Cavab verməzdən əvvəl düşünür, kənar şəxslərlə danışanda ona "sən" yox, "siz" deyə müraciət edir. Özünə aid olmayan söhbətlərə müdaxilə etmir.

Nəzakətli insan digərlərinin yanında yoldaşı ilə pıçıldaşmır.





***1. Mətndən hansı nəticəni çıxardınız?***

***2. Nəzakətli olmaq nə üçün vacibdir?***

***3. Şəkildəki qızın hərəkətini şərh edin. Bu nə üçün yaxşı hərəkət hesab olunmur?***

LAYİHƏ

# SAĞLAMLIĞIMIZI QORUYAQ



7. Faydalı və zərərli vərdişlər
8. Çətin vəziyyətə düşəndə
9. Məişətdə
10. Qida zəhərlənmələri
11. Mövsümi xəstəliklər
12. Səyahət edərkən
13. Texnogen hadisələr
14. Yanğından mühafizə vasitələri
15. Şəkil və plan

LAYİHƏ

# 7. FAYDALI VƏ ZƏRƏRLİ VƏRDİŞLƏR



***Sağlam olmağın birinci şərti sağlam həyat tərzidir. Bəs sağlam həyat tərzi necə olur?***



İnsanın sağlamlığı üçün faydalı və zərərli vərdişlər vardır.

Bəzi insanlar ayaqüstü qidalar qəbul etməyi vərdişə çevirmişlər. Bu cür qidalanmaq orqanizm üçün zərərlidir. Gün ərzində ən azı üç dəfə yemək, təzə və faydalı qidalar qəbul etmək sağlamlığın vacib şərtlərindəndir.

Bəzi insanlar saatlarla televizora baxmağı, yaxud kompüter arxasında əyləşməyi vərdiş etmişlər. Bu vərdiş onların uzun müddət hərəkətsiz qalmasına səbəb olur. Uzun müddət hərəkətsiz oturmaq isə insanın sağlamlığına çox ziyan vurur.



***Ayaqüstü qidaların sağlamlığa zərərini izah edin.***



Hər gün gecə eyni vaxtda yatmaq, səhər də eyni saatda oyanmaq yaxşı vərdişdir. Düzgün yuxu rejimi orqanizmin gücünü və sağlamlığını qorumasına kömək edir. Yuxusuz qalmaq xəstəliklərə qarşı müqavimətin zəifləməsinə səbəb olur.

Hər səhər idman etməyi vərdişə çevirmək faydalıdır. Bu, gün ərzində gümrah olmağa kömək edir.



***Axşam saat neçədə yatmaq, səhər saat neçədə oyanmaq yaxşıdır?***

LAYİHƏ







Əlləri tez-tez sabunla yumaq, vaxtlı-vaxtında yuyunmaq vərdişi bədəni təmiz saxlamağa kömək edir.

Hər gün dişləri fırçalamaq yaxşı vərdişdir. Bu vərdiş sayəsində dişlərin çürüməsinin qarşısı alınır.

Soyuq havada nazik geyinmək, tərli halda soyuq su içmək, küləkli havada yuyunub yaxşı qurulanmadan bayıra çıxmaq sağlamlığa qarşı laqeydlikdir. Bu cür zərərli vərdişlər zaman keçdikcə insanın orqanizmində müxtəlif xəstəliklərin yaranması ilə nəticələnir.



*1. Sağlamlığa daha nələr ziyan vura bilər?*
*2. “Sağlamlığımı qorumaq üçün nə edirəm?” adlı mətn tərtib edin.*

LAYİHƏ

# 8. ÇƏTİN VƏZİYYƏTƏ DÜŞƏNDƏ



***Yaşından asılı olmayaraq hər bir insan çətin vəziyyətlərə düşə bilər. Bu cür hadisə baş verərsə, çətin vəziyyətdən çıxmağı bacarmaq lazımdır. Bəs bunu necə etmək olar?***

Gəzinti zamanı siz böyüklərdən ayrı düşə bilərsiniz. Liftlə qalxdığınız zaman lift birdən dayana, olduğunuz binada yanğın başlaya bilər. Gözləmədiyiniz halda zəlzələ baş verə bilər.

İnsanların sıx olduğu yerlərdə gəzərkən böyüklərdən ayrı düşmüşsünüzsə, yaxınlıqda görünən polis işçisinə, yaxud topa halında dayanmış insanlara yaxınlaşmaq, vəziyyəti onlara bildirmək lazımdır.

Bəs bu cür hal insanlar olmayan yerlərdə məsələn, meşədə baş versə, necə?

Azyaşlı uşaqlar meşəyə yalnız böyüklərlə girməlidirlər. Əgər meşədə o, böyüklərdən ayrı düşüb yolu azarsa, yenə də qorxmaq lazım deyil. Böyüklər onu mütləq tapacaqlar. Yolu axtarmağa ehtiyac yoxdur, olduğu yerdə qalmalı və çağırmalı, mümkün qədər ucadan səs salmalıdır. Bu halda onu tapmaq çətin olmayacaq.



***Şəkillərdə uşaqların düşdüyü çətin vəziyyətləri izah edin.***







***Liftdə çətin vəziyyətə düşərkən özünü itirmək nəyə səbəb ola bilər?***

Liftdə olarkən lift qəfildən dayanarsa, qorxub özünü itirmək, liftin düymələrini oynatmaq olmaz. Belə etsəniz, özünüzə kömək edə bilməzsiniz. Liftin içərisi qaranlıqdırsa, telefo-



LAYİHƏ

nunuzun fonarını yandıra bilərsiniz. Bu liftin düymələrini görmək üçün lazımdır. Əvvəlcə “Qapını aç” düyməsini sıxın, çünki bəzən bu düyməni sıxan kimi qapı açılır. Əgər qapı açılmasa, binanın nəzarətçisi ilə əlaqə düyməsini sıxın. Bir çox liftlərdə belə bir düymə olur.





Bu düymə vasitəsilə nəzarətçini vəziyyətdən xəbərdar etmək mümkündür. Liftdə belə düymə yoxdursa, qapını döyüb kömək çağırmaq lazımdır. Belə etsəniz, liftdə qaldığınızı biləcək və tezliklə sizi oradan çıxaracaqlar.

Başqa gözlənilməz hallar da ola bilər. Bütün hallarda insan, ilk növbədə, təmkinli olmağa çalışmalıdır.



*1. Siz bu cür hadisələrlə qarşılaşmısınızmı? O zaman necə hərəkət etmisiniz?*
*2. Gözlənilməz bir hadisə fikirləşin. Həmin hadisəni qələmə alın və ona başlıq verin.*
*3. Cədvəli işləyin.*

| GÖSTƏRİLƏN ÇƏTİN VƏZİYYƏTLƏRDƏ NƏ ETMƏK LAZIMDIR? | | | | |
|---|---|---|---|---|
| *Küçədə azarsınızsa* | *Böyük supermarketdə itərsinizsə* | *Metroda valideynlərdən ayrı düşərsinizsə* | *Olduğunuz binada yanğın baş verərsə* | *Olduğunuz yerdə zəlzələ baş verərsə* |
| | | | | |

LAYİHƏ

# 9. MƏİŞƏTDƏ



***Bizim üçün ev ən təhlükəsiz yerdir, amma diqqətlə düşünsək, evdə də həyat üçün təhlükə yarana bilər.***

İnsanlar məişətdə işlədilən qaz və elektrik avadanlıqlarından, kəsici alətlərdən istifadə qaydalarına mütləq əməl etməlidirlər. Qaz və elektrik cihazları ilə davranış qaydalarına əməl etməyi, kəsici, deşici alətlərlə ehtiyatlı davranmağı da vərdişə çevirmək lazımdır.



***Aşağıdakı tşvsiyələri oxuyun. Siz bu tövsiyələrə daha nələri əlavə edə bilərsiniz?***

- x Yanan qaz cihazını nəzarətsiz qoymaq olmaz.
- x Cihazları şəbəkəyə qoşarkən elə etmək lazımdır ki, əl elektrik çəngəlinin dəmir hissəsinə toxunmasın.
- x İşləyən elektrik cihazına yaş əllə toxunmaq təhlükəlidir.
- x Elektrik şəbəkəsinə yad cisimlər salmaq olmaz.
- x Əlində bıçaq və qayçı olarkən qaçmaq olmaz.
- x Bıçağın dəstəyindən tutmaq və onu şiş ucu aşağı vəziyyətdə saxlamaq lazımdır.
- x Qayçını ağzıaçıq vəziyyətdə aparmaq düzgün deyil.
- x Tikiş tikərkən iynəni ağızda saxlamaq təhlükəlidir.

Sağlamlığı qorumağın başqa şərtləri də vardır. Bunlar məişətdə, küçədə ehtiyatlı davranmaqla, təbii fəlakətlər və texnogen qəzalar zamanı davranış qaydaları ilə bağlıdır. Tanımadığınız ərazilərə yalnız böyüklərlə birlikdə daxil olmaq lazımdır. Belə yerlərdə həyat və sağlamlığınız üçün təhlükə ola bilər.

İşğaldan azad edilmiş ərazilərdə mina və partlamamış hərbi sursatlara rast gəlmək olar. Xəbərdaredici işarələrə laqeyd yanaşmaq olmaz!



***Uşaqların oynaması üçün təhlükəsiz olan yerləri sadalayın.***

LAYİHƏ







*Xəbərdaredici işarələr*




Yol hərəkəti və nəqliyyatda davranış qaydalarına əməl etmək də sağlamlığın qorunması üçün vacibdir.

Hamı qəzalar, təbii fəlakətlər zamanı özünümühafizə qaydalarını öyrənməlidir ki, belə hallar baş verəndə özünü qoruya bilsin.



***1. “Kəsici və deşici alətlərdən necə istifadə edirəm?” adlı mətn tərtib edin.***
***2. Tanımadığınız ərazilərdə həyat və sağlamlığınız üçün hansı təhlükələr ola bilər?***
***3. Xəbərdaredici işarələr haralarda qoyulur?***

LAYİHƏ

## 10. QİDA ZƏHƏRLƏNMƏLƏRİ



***Satılan qida məhsulunun qutusu, paketi üzərində məlumatlar olur. Bu məlumatları nə üçün yazırlar?***



Vaxtı keçmiş qənnadı məmulatları, ət-süd məhsulları və yumurta insanın zəhərlənməsinə, yaxud onun həzm orqanlarının xəstəliklərinə səbəb ola bilər. Köhnələndə ərzağın tərkibində orqanizm üçün zərərli maddələr əmələ gəlir. Buterbrodların hazırlandığı ərzaqlar köhnə olarsa, yaxud qaydalara uyğun saxlanmazsa belə buterbrodlardan zəhərlənmək mümkündür.



***Buterbrod üçün hansı ərzaqlardan istifadə etmək daha faydalıdır?***



Ət, balıq məhsullarından, göbələkdən hazırlanan yeməklərdən də zəhərlənmə halları çox olur.

Konservləşdirilmiş tərəvəzlər də insanın zəhərlənməsinə səbəb ola bilər.





***Hansı tərəvəzlərdən konservləşdirilmiş halda da istifadə olunur?***



LAYİHƏ

Zəhərlənməni yaradan bakteriyalardır. İçərisində belə bakteriyalar olan bankanın qapağı çox vaxt qabarır. Bankadakı suya da diqqət yetirmək vacibdir. Əgər bankada su bulanmışsa, çox güman ki, tərəvəz zəhərlidir.

Bankanı açdıqdan sonra yaxşı olar ki, içərisindəki qida elə həmin gün isifadə edilsin. İstifadə edilməzsə, onu 2—3 gün soyuducuda saxlamaq olar.

Qidanın qoxusu pisdirsə, onu yemək sağlamlıq üçün təhlükəli ola bilər.

Təzə meyvə-tərəvəzdən də zəhərlənmə halları olur. Xüsusilə düzgün becərilməyən qarpız, çiyələk kimi giləmeyvələr zəhərlənməyə səbəb olur.

Qida qəbulundan sonra zəhərlənmə əlamətləri hiss etdikdə dərhal təcili yardıma müraciət etmək lazımdır.

**QİDA ZƏHƏRLƏNMƏSİNİN ƏLAMƏTLƏRİ**





*1. İnsan qidadan hansı səbəbdən zəhərlənir?*
*2. Konservləşdirilmiş tərəvəzlərdən istifadə edərkən nələrə diqqət etmək lazımdır?*
*3. Şəkillərə əsasən qida zəhərlənməsinin əlamətlərini sadalayın.*

LAYİHƏ

# 11. MÖVSÜMİ XƏSTƏLİKLƏR



***Ətrafımızda müxtəlif xəstəliklərin törədiciləri olan mikroblar var. İnsanlar onlara qarşı həmişə sayıq olmalıdırlar.***



İnsan zəifləyəndə orqanizmində mikroblar fəallaşıb çoxalır və onu xəstələndirir.

Qış aylarında qrip və angina kimi yoluxucu xəstəliklər yayılır. Orqanizmi yoluxucu xəstəliklərə qarşı möhkəmləndirmək vacibdir. Gigiyena qaydalarına əməl etməmək, ayaqüstü qidalar qəbul etmək və soyuqlamaq insanın bu xəstəliklərə asanlıqla yoluxmasına səbəb olur.



***Angina və qrip xəstəliyinin əlamətlərini söyləyin.***



Yay mövsümündə qida qəbulu ilə bağlı qarında ağrı, qusma, bəzən də yüksək temperaturla müşayiət olunan xəstəliklər artır. Bunun səbəbi yay aylarında mikrobların sürətlə çoxalmasıdır. Üstəlik yayda mikrobların insanın orqanizminə düşməsi üçün imkanlar da çoxalır. Məsələn, dəniz və göldə üzərkən suda olan mikroblar insanın bədəninə daxil olur. Dənizdə, yaxud hovuzda çimərkən çalışmaq lazımdır ki, ağıza su dolmasın. Əgər dolarsa, suyu udmaq olmaz.



Yayda bağ-bostanda meyvə-tərəvəz yetişir. Bu məhsullar bizim süfrəmizə gələnə qədər çox yol keçir. Yolda onlar nəqliyyat vasitələrindəki toz və digər zərərli təsirlərə məruz qalır.

LAYİHƏ







*Hansı meyvələri soymaq olar?*

Yuyulmamış meyvə-tərəvəz insanlarda qurd xəstəlikləri və başqa rahatsızlıqlar yarada bilər. Ona görə meyvə-tərəvəzi istifadə edərkən mütləq yumaq, yuduqdan sonra qabığı soyula bilən meyvə-tərəvəzi soymaq lazımdır.

Yeməkdən əvvəl və sonra əllər yuyulmalıdır. Üzərinə milçəklər qonmuş qidaları yemək olmaz.



Yayda ağcaqanad çox olur. Yay fəslində ağcaqanadlar vasitəsilə keçən xəstəliklər yayıla bilər. Axşam saatlarında ağcaqanadlar xüsusilə fəallaşır. Belə vaxtlarda ağcaqanad sancmasından qorunmaq üçün qapı və pəncərələri qoruyucu torlarla örtülmüş otaqlarda olmaq məsləhətdir. Bayıra çıxarkən isə nazik uzunqol köynək və uzun şalvar geyinmək lazımdır.



***1. "İnsan sayıqlığını itirəndə mikroblar onun orqanizminə daxil olur və insan xəstələnir" ifadəsini izah edin.***

***2. Payız və yay mövsümündə hansı xəstəliklər yayılır?***

***3. Qurd xəstəlikləri necə yaranır? Bu xəstəliklərdən necə qorunmaq olar?***

***4. Ağcaqanad sancmasına qarşı mübarizə yolları haqqında danışın.***

LAYİHƏ

# 12. SƏYAHƏT EDƏRKƏN



***Səyahət etmək insandan müəyyən hazırlıqlar tələb edir. Bu bacarıqları olmayan insanlar səyahət zamanı xoşagəlməz vəziyyətlərə düşə bilərlər.***

Avtomobil ən çox istifadə edilən nəqliyyat vasitəsidir. Avtomobildə səyahət edərkən təhlükəsizlik kəmərini mütləq bağlamaq lazımdır. 12 yaşa qədər uşaqlar avtomobildə arxa oturacaqda əyləşməlidirlər. Pəncərədən başını, qolunu çıxarmaq, sürücünün diqqətini yayındırmaq olmaz.





***Avtomobildə təhlükəsizlik kəmərinin rolunu izah edin.***

Uzaq yerlərə getmək üçün təyyarə ən əlverişli nəqliyyatdır. Təyyarə ilə səyahət edəndə təhlükəsizlik qaydalarına əməl etmək lazımdır.

Təyyarəyə qalxarkən pilləkənləri qaçaraq çıxmaq, sərnişinləri itələmək olmaz. Təyyarədə biletə görə hər kəsin öz yeri olur. Sərnişinlər öz yerlərində əyləşib mobil telefonu, notbuk və planşeti söndürür, yaxud uçuş rejiminə keçirirlər. Bu cihazlar siqnalları qəbul edib məlumat ötürdüyünə görə təyyarə cihazlarının işinə maneə yarada və təyyarənin qəza törətməsinə səbəb ola bilər.

Təyyarə havaya qalxmaq üçün hərəkətə gələrkən və enməyə başlayarkən sərnişinlər öz yerində əyləşməli, oturacaqların söykənəcəyi düz vəziyyətə gətirilməlidir. Təyyarə havaya qalxarkən, yaxud enərkən açılmış kreslo sərnişin üçün təhlükə yarada bilər. Təhlükəsizlik kəmərini mütləq bağlamaq lazımdır. Uçuş zamanı təyyarənin salonunda böyüklərin müşayiəti ilə hərəkət etmək olar.

Səyahət başa çatanda dərhal təhlükəsizlik kəmərini açmaq və kreslodan qalxmaq olmaz. Təyyarənin tam dayanmasını gözləmək lazımdır. Yerinizdən qalxarkən tələsmək, qabağa keçmək üçün sərnişinləri itələmək olmaz.



***Bu cür davranışların yarada biləcəyi təhlükələri söyləyin.***

LAYİHƏ

Təyyarəni tərk edərkən uçuş müddətində sizin qayğınızı çəkən təyyarə bələdçisinə və uçuşu uğurla başa çatdıran təyyarəçilərə təşəkkür etməyi də unutmayın.



Gəmi səyahətləri də təhlükəsizlik qaydalarına əməl olunmasını tələb edir. Gəminin göyərtəsinə qalxarkən tələsmək olmaz. Gəminin göyərtəsində qaçmaq sürüşüb yıxılmağınıza səbəb ola bilər. Gəmidə göyərtənin kənarlarına yaxınlaşmaq təhlükəlidir. Gəmi azacıq ləngər vursa, siz aşıb dənizə düşə bilərsiniz.

Qəza baş verdiyi hallarda gəmidə və təyyarədə olanlar üçün xüsusi xilasetmə vasitələri var. Bunlar ***xilasedici qayıq, jilet, dairə*** və başqa vasitələrdir. Bu nəqliyyat vasitələrinin sərnişinləri xilasedici vasitələrdən istifadə qaydalarını öyrənməlidirlər.

XİLASETMƏ VASİTƏLƏRİ



Qatarla səyahət edən sərnişinlər bilməlidirlər ki, minik başlanana qədər qatara yaxınlaşmaq olmaz. Hərəkət edən qatarda başını pəncərədən çıxarmaq da təhlükəlidir.



***1. Təyyarədə nə üçün telefonla zəng etmək olmaz?***
***2. Gəmidə və təyyarədə istifadə olunan xilasetmə vasitələrini sadalayın.***
***3. Bütün nəqliyyat vasitələri üçün ümumi olan təhlükəsizlik qaydalarını müəyyən edin.***

LAYİHƏ

## 13. TEXNOGEN HADİSƏLƏR



***Yanğın, partlayış, yol-nəqliyyat qəzaları texnogen xarakterli qəzalardır. Bu hadisələr insanların sağlamlığı üçün təhlükə yarada bilər.***

Texnogen xarakterli qəzalar çox vaxt insanların ehtiyatsızlığı, təhlükəsizlik qaydalarına əməl etməməsi üzündən baş verir. Böyük miqyaslı texnogen qəzalar ətraf mühitə təsir göstərib ciddi dəyişikliklərə səbəb olur. Belə qəzalar insanların sağlamlığı üçün də ciddi təhlükələr yaradır.

Texnogen xarakterli fövqəladə hadisələri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Nəqliyyat qəzaları;
- Yanğınlar və partlayışlar;
- Zəhərli maddələrin yayılması ilə baş verən qəzalar;
- Böyük su qurğularında baş verən qəzalar.

Təhlükəli yüklər daşınan dəmiryolu qəzalarında zərərli maddələr ətraf mühitə dağılaraq təbiətə ziyan vurur. Yaxud bəzən su yolları ilə neft daşınmaları zamanı qəzalar baş verir. Belə qəzalar zamanı neftin dağılması nəticəsində suyun üzərində

**TEXNOGEN XARAKTERLİ FÖVQƏLADƏ HADİSƏLƏR**

Nəqliyyat qəzaları



Yanğınlar və partlayışlar



Böyük su qurğularında baş verən qəzalar









Zərərli maddələrin yayılması ilə müşayiət olunan qəzalar

LAYİHƏ





*Neft dağılmış dənizdə*



***İnsanlar evdə qəzaların baş verməməsi üçün hansı təhlükəsizlik qaydalarına əməl etməlidirlər?***

böyük neft ləkələri yaranır. Suya dağılmış neft çoxlu sayda su canlısının məhvinə səbəb olur.

Böyük çayların qarşısına çəkilən su bəndlərinin dağılması şəhər və kəndlərin su altında qalması kimi təhlükəli hal yarada bilər.

Təbii fəlakətlərdən fərqli olaraq texnogen qəzaların qarşısını almaq olar. Bunun üçün insanlar evdə və iş yerlərində, nəqliyyatda və digər qəza təhlükəli yerlərdə qaydalara ciddi əməl etməlidirlər.



Yaponiyada 2011-ci ildə güclü zəlzələdən sonra atom elektrik stansiyasında partlayış baş verdi. Həmin hadisə zamanı torpağa çoxlu miqdarda zərərli maddələr dağıldı. Ona görə də indi orada formasını dəyişmiş bitkilərə tez-tez rast gəlinir.





1. ***Texnogen və təbii xarakterli fövqəladə halları oxşar və fərqli cəhətlərinə görə müqayisə edin.***
2. ***Texnogen hadisələr ətraf mühitə necə təsir göstərir?***
3. ***Hansı texnogen qəzanı ən təhlükəli hesab edirsiniz? Ən təhlükəli hesab etdiyiniz qəza baş verərsə, vura biləcəyi ziyan haqqında mətn tərtib edin.***

LAYİHƏ

# 14. YANĞINDAN MÜHAFİZƏ VASİTƏLƏRİ



*Şəkildə gördüklərinizlə həyatda rastlaşmısınızmı? Bu vasitələrin nəyə qarşı olduğunu bilirsinizmi?*









LAYİHƏ

Bəzən insanların ehtiyatsızlığı, yaxud digər səbəblərdən yanğın, partlayış baş verir. Belə gözlənilməz hadisələrə qarşı həmişə hazır olmaq lazımdır.




Elə bu səbəbdən insanların çox olduğu böyük binalarda yanğınsöndürmə balonları qoyulur. Bu balonlar yeni başlayan yanğını dərhal söndürmək üçündür. Yanğınsöndürmə balonunun köməyilə alovun geniş ərazilərə yayılmasının qarşısını almaq olar. Yanğınsöndürmə balonunda köpük var. Yanğının üzərinə yönəldilən köpük onu söndürür.

Yanğın təzə başlayanda onu söndürmək üçün qumdan da istifadə edilir.



*Yanğını söndürmək üçün qumdan necə istifadə etmək lazımdır?*

Yanğını söndürmək üçün ən çox sudan istifadə olunur.

Yanğınsöndürmə balonundan istifadə edərkən alova çox yaxınlaşmaq olmaz. Balonu açıb odsöndürənin şırnağını yanan əşyanın üzərinə yönəltmək lazımdır. Bu zaman respiratordan istifadə etmək yaxşı olar. Yanğın zamanı yaranan tüstü çox təhlükəlidir. Qatı tüstü ilə nəfəs alanda insan zəhərlənir.

Respiratordan başqa əleyhqaz adlanan xüsusi cihazlar insanın tənəffüs orqanlarını və gözlərini havadakı tüstüdən və zəhərləyici qazlardan qoruyur.



*1. Yanğınsöndürmə balonları harada qoyulur?*
*2. Əleyhqazlar nə üçündür?*
*3. Yanğın vaxtı tüstüdən necə qorunmaq olar?*
*4. Yanğını söndürmək üçün qumdan necə istifadə olunur?*

LAYİHƏ

# 15. ŞƏKİL VƏ PLAN



***Plan nədir və o necə hazırlanır? Aşağıdakı mətndə plan haqqında məlumat alacaq, onun necə hazırlandığını öyrənəcəksiniz.***

Təsəvvür edin ki, böyük bir binadasınız. Birdən radio qovşağından səs gəlir: “Yanğın baş verib. Xahiş olunur binanı təcili tərk edəsiniz”. Binanı təcili tərk etmək üçün siz nəyi bilməlisiniz? Əgər plan barədə məlumatınız yoxdursa, o zaman cavab verməyə tələsməyin.

Plan hər hansı bir əşya, bina, ərazi haqqında məlumatdır. Plana əsasən binada, yaxud ərazidə nələr olduğunu və onların necə yerləşdiyini söyləmək mümkündür.




Əgər sizə heç zaman olmadığınız bir şəhərin planı verilsə, bu plana əsasən o şəhər barədə məlumat ala bilərsiniz: həmin şəhərdəki küçələr, binalar, hava limanı, parklar, ticarət mərkəzləri, bir sözlə, hər şey planda əks olunur. Planı diqqətlə öyrənəndən sonra ora getsəniz, özünüzü tanış şəhərdə gəzirmiş kimi hiss edəcəksiniz. Küçənin, evin, otağın, hətta otaqdakı əşyaların da planı olur.




Bina inşa etmək istəyəndə, əşyanı hazırlayanda insanlar əvvəlcə onun planını tərtib edirlər.

Böyük binaların planında mərtəbələrin sayı, pilləkənlərin, qapı-pəncərələrin, qəza çıxışlarının yeri göstərilir.

Əşyaların da planını çəkmək olar.

Ayrı-ayrı əşyaların planını necə hazırlayırlar? Çox sadə! Məsələn, kibrit qutusunun planını hazırlamaq üçün kibrit qutusunu kağızın üzərinə qoyub ətrafını karandaşla çizin. Kibrit qutusunu götürün. Kağızın üzərində qalan təsvir kibrit qutusunun planıdır.



*Kibrit qutusunun şəkli*



*Kibrit qutusunun planı*

LAYİHƏ

Kibrit qutusunun planı ilə onun şəkli arasında fərq var. Şəklində kibrit qutusunun yanları və üzü görünür. Planda isə biz ona sanki yuxarıdan baxırıq.



*Şəkillə planın fərqini izah edin.*

Kibrit qutusu kiçik əşyadır və dəftər vərəqinin üzərinə yerləşir. Bəs böyük əşyaların, məsələn, şkafın planını necə çəkmək olar? Axı şkafı kağızın üzərinə yerləşdirmək mümkün deyil. Bunun da çox asan yolu var. Planda böyük əşyalar ölçülərindən kiçik çəkilir. Əgər otağın planını çəkmək lazımdırsa, otağın ölçüləri elə kiçildilir ki, onu dəftər vərəqində çəkmək mümkün olsun. Otaqdakı əşyaların da eni və uzunluğu planda kiçildilmiş şəkildə göstərilir.

**OTAĞIN PLANI**




LAYİHƏ

Planını tərtib edərkən otaqdakı əşyaları istənilən yerdə çəkmək olmaz. Hər bir əşyanı öz yerində çəkmək lazımdır. Məsələn, sinif otağında, yaxud iş otağında stol-stul və skamyaların, şkafın, çarpayının və digər əşyaların yeri düzgün göstərilməlidir.

**SİNİF OTAĞININ PLANI**






*1. Plan hansı məqsədlərlə hazırlanır?*
*2. Əşyaların planını çəkmək bizə nə üçün lazım ola bilər?*
*3. Əşyaların planı necə çəkilir?*
*4. Sinif otağınızın, yaxud öz otağınızın planını çəkin.*

LAYİHƏ

# YER KÜRƏSİ – EVİMİZ



BİZİ ƏHATƏ EDƏN TƏBİƏT
16. Dünya okeanı
17. Materiklər və adalar
18. Yerin hava təbəqəsi

TƏBİƏT HADİSƏLƏRİ
19. Külək necə yaranır?
20. Yer kürəsinin hərəkəti
21. Rənglər
22. Təhlükəli təbiət hadisələri

CANLILAR ALƏMİ
23. Mikroorqanizmlər
24. Göbələklər
25. Ağac əkməyə gedirik
26. Heyvanların müxtəlifliyi
27. İnsan ətrafı necə dərk edir?

LAYİHƏ

# BİZİ ƏHATƏ EDƏN TƏBİƏT

## 16. DÜNYA OKEANI



***Hər il iyunun 8-də bir çox ölkələrdə Ümümdünya Okeanlar günü qeyd edilir. Yer səthinin çox hissəsini su tutur. Bu su sahəsi Dünya okeanını əmələ gətirir. Dünya okeanı ayrı-ayrı okeanlara bölünüb. Bu okeanlar bir-birindən fərqlənir.***




Dünya okeanında ən kiçik sahəni Şimal Buzlu okeanı tutur. Sularının temperaturuna görə Şimal Buzlu okeanı həm də ən soyuq okeandır. Onun çox yerlərində daimi buzlaqlar var. Ən böyük sahə isə Sakit okeana məxsusdur. Sakit okean həm də ən isti hesab olunur. O, Dünya okeanının çox hissəsini tutduğuna görə Günəş şüaları düşən sahəsi də digər okeanlardan çoxdur. Sahəsinin böyüklüyünə görə Atlantik okeanı ikinci, Hind okeanı isə üçüncü yerdə dayanılr.

Dünya okeanı çox maraqlı, rəngarəng bir dünyadır. Burada sualtı dağlar, çaylar, şəlalələr, hətta göllər var. Dünya okeanının canlılar aləmi də çox zəngindir. Burada indiyə qədər məlum olmayan yeni-yeni canlı növləri aşkar edilir.

Canlılar aləminin zənginliyinə görə Sakit okean birinci yerdə, Şimal Buzlu okeanı isə sonuncu yerdə dayanır.



***Şimal Buzlu okeanının təbiətinin yoxsul olmasının səbəbini necə izah edə bilərsiniz?***



Daimi buzlaqlardan parçalar qopub okeanın sularında üzür. Bu buz parçaları ölçülərinə görə çox nəhəng olur. Onlara ***aysberq*** deyirlər. Aysberqlərin əsas hissəsi suyun altında gizlənir. Bu səbəbdən də onlar gəmilər üçün təhlükə yarada bilər. Ona görə də gəmilərdə aysberqlərin ölçülərini müəyyən edən həssas cihazlar quraşdırılır.



LAYİHƏ



Yer üzündə çoxlu dəniz var. Okeanlar kimi dənizlər də Dünya okeanının hissələridir. Dənizlər də ölçülərinə, istiliyinə, suyunun tərkibinə, canlılar aləminə və digər xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. İnsanlar dənizlərə xüsusiyyətlərinə görə adlar vermişlər. Məsələn, Ağ dəniz, Qara dəniz, Qırmızı dəniz, Sarı dəniz, Mərmərə dənizi özünəməxsus xüsusiyyətləri ilə digər dənizlərdən fərqlənir.

Göründüyü kimi, Dünya okeanı bir olsa da, onun hər yerində sular eyni deyil. Dünya okeanının okeanlara, dənizlərə ayrılmasının səbəbi də elə bu fərqliliklə bağlıdır.



*Dünya okeanının* suyu duzludur, insanlar ondan içmək üçün istifadə etmirlər. İnsanların istifadə etdikləri içməli su buzlaqlarda, çaylarda və şirinsulu göllərdə toplanmışdır. Yer üzündə içməli suyun miqdarı Dünya okeanının sularından dəfələrlə azdır.



1. ***Dünya okeanında hansı okeanlar var?***
2. ***Şimal Buzlu okeanına və Sakit okeana aid əlamətləri müəyyənləşdirib yazın.***
3. ***Dənizlər okeanlardan hansı xüsusiyyətinə görə fərqlənir?***
4. ***Hər hansı bir okean, yaxud dəniz haqqında məlumat toplayıb təqdim edin.***

LAYİHƏ

# 17. MATERİKLƏR VƏ ADALAR



***Materik nədir? Ada nədir? Onlar bir-birindən necə fərqlənir? Neçə materik var? Bu mövzu sizi materiklərlə tanış edəcək.***

Materiklər hər tərəfdən sularla əhatə olunmuş böyük quru parçalarıdır. Bu quru parçaları üzərində dağlar, meşə və düzənliklər var. İnsan və digər quru canlıları materiklərdə yaşayır. Materikləri bir-birindən okeanlar ayırır.




*Materiklər*

Materiklər ölçülərinə görə fərqlənir. Avrasiya ən böyük, Avstraliya isə ən kiçik materikdir.

Avrasiya materikinin ərazisi çox geniş, təbiəti isə olduqca müxtəlifdir. Bu materikdə çox geniş çöllər var. Yer kürəsinin ən uca dağ zirvəsi Avrasiyadadır.



***Materiklə adanın oxşar cəhəti nədir?***

Afrika ölçülərinə görə ikinci böyuk materikdir. Dünyada ən isti ərazilər Afrika materikindədir. Böyük Səhra da Afrikadadır.

Şimali Amerika sahəsinə görə üçüncü yerdə dayanır. Şimali Amerika materikinin də çox zəngin təbiəti var. Dünyada ən dərin dərə – Böyük kanyon Şimali Amerika materikindədir.

Cənubi Amerika böyüklüyünə görə dördüncü materikdir. Ən yağışlı ərazilər Cənubi Amerikadadır. Burada çox qalın meşələr var.

Ölçülərinə görə beşinci materik Antarktidadır. Əslində burada torpaq görünmür, çünki onun üzəri qalın buz qatı ilə örtülmüşdür. Antarktida ən soyuq materikdir. Bura pinqvinlərin vətənidir.



LAYİHƏ




*Materik və okeanların canlılar aləmi*



***Xəritə üzərində materikləri və adaları göstərin.***

Ən kiçik materik olan Avstraliyada elə heyvanlar yaşayır ki, onlara digər materiklərdə rast gəlmək olmur. Avstraliya kenquru, koala kimi maraqlı heyvanların vətənidir.

Dünya okeanında adalar da var. Ada da okean və ya dəniz suları ilə əhatə olunan quru hissəsidir, ancaq fərqlər var. Materiklərlə müqayisədə adaların sahəsi çox kiçikdir. Ən kiçik materik Avstraliya belə dünyanın ən böyük adası Qrenlandiyadan əhəmiyyətli dərəcədə böyükdür.

Qrenlandiya, Yeni Qvineya, Kalimantan, Madaqaskar yer üzündə ən böyük adalardır.



***1. Xəritədə materiklərdəki dağlıq ərazilər sarı-qəhvəyi, düzənlik ərazilər yaşıl, buzlaqlar ağ rəngdə göstərilir. Xəritəyə əsasən materiklərin təbiəti haqqında danışın.***
***2. Bir materikin təbiəti və canlılar aləmi haqqında təqdimat hazırlayın.***
***3. Xəritədə, yaxud qlobusda adaları tapın.***

LAYİHƏ

# 18. YERİN HAVA TƏBƏQƏSİ



***Yer səthindən buxarlanan su nə üçün tamamilə uçub getmir və yenidən yer səthinə qayıdır?***



Yer planetinin təbəqələrindən biri də hava təbəqəsidir. Hava təbəqəsi Yeri hər tərəfdən şəffaf yorğan kimi bürüyüb. Onun tərkibi müxtəlif qazlardan, su buxarından və toz zərrəciklərindən ibarətdir.

Biz, sanki hava okeanında yaşayırıq. Bu okeanın dibində insan rahat tənəffüs edir. Yuxarı qalxdıqca isə tənəffüs etmək çətinləşir.

Hava təbəqəsinin Yer planeti üçün böyük əhəmiyyəti var. Yer üzündə həyatın yaranması, canlı aləmin yaşaması hava təbəqəsinin varlığından asılıdır. Havanın tərkibindəki oksigen qazı yerdəki canlıların nəfəs alması üçün vacibdir.

Hava təbəqəsi gündüzlər Yer səthinin həddən artıq qızmasına, gecələr isə çox soyumasına imkan vermir. Kosmosdan gələn zərərli şüalar da bu təbəqənin sayəsində yerdəki canlılara ziyan vura bilmir.






***Şəkildə gördüklərininzi izah edin.***

LAYİHƏ

Yerin hava təbəqəsi olmasaydı, bulud və yağıntı, külək, göy qurşağı da olmazdı.



İnsanların fəaliyyəti hava təbəqəsinə təsir göstərir. Fabrik və zavodlardan havaya zərərli qazlar, toz və digər maddələr atılır. Nəqliyyatın hərəkəti zamanı da zərərli qazlar ayrılaraq havada yayılır. Bütün bunlar havanı çirkləndirir. Çirklənmə hava təbəqəsində oksigenin azalmasına və başqa dəyişikliklərə səbəb olur. Dəyişikliklər hava ilə tənəffüs edən canlı orqanizmlərin sağlamlığı üçün təhlükələr yaradır. Bu həm də Yerin kosmosdan gələn zərərli təsirlərdən mühafizəsinə də mənfi təsir göstərir.



***Bu şəkildə hava təbəqəsinin hansı xüsusiyyəti əks olunmuşdur?***



Yüksək dağ zirvələrinə qalxmaq üçün xüsusi hazırlıq keçən idmançılar var. Onlar ***alpinistlərdir.*** Alpinistlər Yer kürəsindəki ən uca dağ zirvələrini fəth etmişlər. Dünyada ən hündür dağ zirvəsi Avrasiya materikindədir. Bu zirvənin adı Everestdir. Alpinistlər uzun illər Everestin zirvələrində əsən güclü küləklər, havada oksigenin azlığı səbəbindən bu zirvəyə çıxa bilməmişlər. Onlar Everesti ilk dəfə 1953-cü ildə fəth etmişlər.





***1. Canlılar üçün hava təbəqəsinin əhəmiyyətini izah edin.***
***2. Hava təbəqəsi Yer planetini kosmosun təsirlərindən necə qoruyur?***
***3. Yerin hava təbəqəsində hansı təbiət hadisələri baş verir?***
***3. Çirklənmə hava təbəqəsində necə dəyişikliyə səbəb olur?***

LAYİHƏ

# TƏBİƏT HADİSƏLƏRİ

## 19. KÜLƏK NECƏ YARANIR?



***Təbiətdə külək öz-özünə yaranmır. Küləyi yaradan səbəblər var. Bu mövzuda biz həmin səbəbləri araşdıracağıq.***




*Gündüz vaxtı*




*Gecə vaxtı*

Diqqət etmisinizmi, qışda evin qapısı açılan kimi soyuq hava sürətlə içəri dolur. Otaq dərhal soyuyur, çünki soyuq istini qovub bayıra çıxarır və onun yerini tutur. Beləliklə, soyuq və isti hava yerini dəyişir.

Yerin hər tərəfini Günəş eyni dərəcədə qızdırmır. Ona görə də ayrı-ayrı yerlərdə havanın temperaturu fərqli olur. Hava daim soyuq yerlərdən isti yerlərə hərəkət edir. Külək belə yaranır.

Torpaq suya nisbətən daha tez qızır. Buna uyğun olaraq torpağın üzərindəki hava da suyun üzərindəki havadan isti olur. Belə vaxtda külək dənizdən quruya əsərək sərinlik gətirir.

Təbiətdə küləyin böyük əhəmiyyəti vardır. Külək olmasaydı, yağış buludları elə yarandığı yerdə də qalar, bəzi yerlərdə heç vaxt yağış yağmazdı. Külək buludları qovaraq yağışların paylanmasına kömək edir.



***Şəkildə görüklərinizi izah edin.***

Külək bitkilərin həyatında da mühüm rol oynayır. O, bitkilərin toxumlarını bir yerdən başqa yerə aparıb onların yayılmasına kömək edir.

Külək həm də enerji mənbənbəyidir. Küləkli ərazilərdə insanlar xüsusi qurğular vasitəsilə küləkdən elektrik enerjisi alırlar.

LAYİHƏ







İsti hava doldurulmuş şarların necə uçduğunu görmüsünüzmü? Bu, ona görə belə olur ki, isti hava yüngül olduğu üçün yuxarı qalxır.

Keçmişdə insanlar isti hava doldurulmuş nəhəng hava şarları düzəldirdilər. Külək hava şarını qovub aparır, insanlar bu şarlar vasitəsilə səyahət edirdilər. Hava şarları indiki təyyarələri əvəz edirdi.





*1. Şaxtalı havada qapını açanda hansı hadisə baş verir?*
*2. Küləklə yağış arasında necə əlaqə var?*
*2. Küləyin bitkilərin həyatı ilə necə əlaqəsi vardır?*
*3. Küləkdən enerji alınmasının faydasını izah edin.*



***"Avtomobil-raket"***

***Resurslar:***

- ***hava şarı***
- ***rezin***
- ***şirə içmək üçün çöp***
- ***yapışqan***
- ***yüngül çəkili oyuncaq avtomobil***



***Hava şarını çöpün bir ucuna rezinlə bərkidin. Çöpün digər ucunu isə lentlə oyuncaq avtomobilə yapışdırın. Çöp vasitəsilə şarı üfürün, sonra barmağınızı çöpün ucuna tutub avtomobili yerə qoyun. və barmağınızı dəlikdən götürün. Baş verənləri müşahidə edin.***

*Açıqlama:Hava axını sürətlə çıxaraq avtomobili geri itəlrir.*

LAYİHƏ

# 20. YER KÜRƏSİNİN HƏRƏKƏTİ



***Gecə və gündüz daim bir-birini əvəz edir. İl ərzində fəsillər növbə ilə təbiəti dəyişir. Bu ardıcıllıq heç vaxt pozulmur. Bu təbiət hadisələri necə baş verir?***

Gecə və gündüzün bir-birini əvəz etməsi təbiət hadisəsidir. Bu hadisə Yer kürəsinin öz oxu ətrafında saat əqrəbinin əksi istiqamətində fırlanması nəticəsində baş verir. Yer öz oxu ətrafında hərəkətini bir gecə-gündüzə başa vurur. Bunu təsəvvür etmək üçün qlobusu saat əqrəbinin əksi istiqamətində yavaşca fırladıb fənərlə işıqlandırın. Görəcəksiniz ki, Yer fırlandıqca Günəşə sarı çevrilən tərəfində gündüz, işıq düşməyən tərəfində isə gecə olur.




Yerin tam bir dövrə vurması 24 saat çəkir. Bu vaxta ***sutka*** deyilir. Sutkanın yarısı gecə, yarısı gündüzdür. Fəsildən asılı olaraq gah gecə, gah da gündüz uzanır, sutkanın uzunluğu isə həmişə eyni qalır.

Yer kürəsində səhər ilk olaraq şərq ölkələrində açılır və qaranlığı qova-qova qərbə doğru irəliləyir. Bir ölkədə səhər açılanda başqa ölkədə artıq günorta olur, başqasında isə gecə düşür. Buna uyğun olaraq ölkələrdə saatın əqrəbləri müxtəlif vaxtları göstərir.

Vaxtı müəyyən etmək üçün insanlar Yer kürəsini sutkanın saatlarına uyğun olaraq 24 yerə bölüblər. Buna saat qurşağı deyirlər. Yanaşı qurşaqlar arasında bir saat fərq olur. Məsələn, bizim ölkədə saat 1 olanda bizdən şərqdə yerləşən qonşu ölkədə saat 2-ni, qərbdəkində isə 12-ni göstərir. Ölkələr bizdən uzaqlaşdıqca saat fərqi də bir o qədər çoxalır.



***Türkmənistanın paytaxtı Aşqabad şəhərində səhər saat 11 olanda Bakıda saat 10 olur. Vaxta görə bu şəhərlərdən hansının daha qərbdə yerləşdiyini müəyyən edin.***

Əmim Avstraliyada yaşayır. Bir dəfə o, Yeni ilimizi təbrik etmək üçün görüntülü zəng vurmuşdu. Gördüm ki, əmim yay geyimində açıq havada dayanıb. Yan-yörəsində də əsl yaydır. Yanvarın 1-də Avstraliyada havanın belə olması məni çox təəccübləndirdi. Danışıb qurtarandan sonra atamdan bunun nə üçün belə olduğunu soruşdum. Atam mənə izah etdi ki, gecə-gündüz kimi fəsil-

LAYİHƏ




lərin yaranması da Yerin hərəkəti ilə bağlı hadisədir. Yer eyni zamanda həm öz oxu, həm də Günəş ətrafında  hərəkət edir. Yer Günəş ətrafında tam dövrünü bir ilə başa vurur. Həmin müddətdə dörd fəsil bir-birini əvəz edir.

Yer oxunun bir başında ***şimal,*** digərində isə ***cənub qütbü*** yerləşir. Buna uyğun olaraq Yer kürəsi şimal və cənub yarımkürələrinə ayrılır. Yarımkürələri ayıran xəyali xətt ***ekvator*** adlanır.

***

Diqqət etmisinizmi, qlobusda Yer bir qədər əyilmiş şəkildə dayanır. O, Günəşin ətrafında da elə bu cür əyilmiş şəkildə fırlanır. Bu səbəbdən orbitində hərəkət edəndə yarımkürələrə eyni miqdarda Günəş işığı düşmür.

İyun-iyul aylarında şimal yarımkürəsinə bol Günəş işığı düşür. Burada yay fəsli olur. Cənub yarımkürəsinə isə bu zaman Günəş işığı az düşür, ona görə də burada qış hökm sürür. Dekabr ayında şimal yarımkürəsində qış girəndə cənub yarımkürəsində yay fəsli başlayır.




LAYİHƏ

Bizim ölkədə yay olanda Avstraliyaya səfər etsən, görəcəksən ki, orada qışdır. Bunun səbəbi Avstraliya materikinin Yerin cənub yarımkürəsində yerləşməsidir.






*1. Səhər açılanda nə üçün Günəş həmişə şərq tərəfdə görünür?*
*2. Fəsillərin dəyişməsi nə ilə bağlıdır?*
*3. Fəsillərin dəyişməsi ilə təbiətdə baş verən hadisələri ardıcıllıqla şərh edin.*
*3. Fəsillərin dəyişməsi ilə bağlı gündüzün uzunluğunun necə dəyişdiyini təqvimdə müqayisə edin.*



*"Gecə-gündüz" "Fəsillər"*

*Resurslar:*

*• qlobus • əl fənəri • vatman kağızı • stolüstü lampa*

*1. Sadə əl fənəri ilə qlobusu işıqlandırın. Qlobusu saat əqrəbinin istiqamətində yavaş-yavaş fırladın. Fənərin qlobusu necə işıqlandırdığını mühahidə edin.*

*2. Vatman kağızında dairə çəkib kağızı stolun üstünə qoyun. Stolüstü lampanı dairənin ortasında yerləşdirin. Qlobusun yerini dairə boyunca dəyişərək müxtəlif nöqtələrə qoyun və bu zaman yarımkürələrin necə işıqlanmasını müşahidə edin.*

LAYİHƏ

# 21. RƏNGLƏR



***Təbiətdə əlvan rənglər var. Bəs bu rəngləri yaradan nədir?***



Tətil vaxtı kəndə getmişdim. Babamın əkdiyi qızılgüllər açmışdı. Bağçada hər rəngdə qızılgül var idi.

Düşündüm ki, şəhərə qayıdanda bu güllərdən dərib bacım üçün apararam. Şəhərə qayıdacağımız günün axşamı bacım üçün qızılgülləri dərib hazır qoymaq istəyirdim. Pəncərədən bağçaya baxdım. Qara-boz kollarda rəngi bilinməyən qızılgüllər vardı. Nə qədər diqqətlə baxsam da, onların rəngini ayırd edə bilmədim.

Səhər oyananda gördüm ki, babam güllərdən gözəl dəstə bağlayıb əşyalarımın yanına qoyub.



Şəhərə çatdıq. Bacım güllərə görə sevindi. Mənə "çox sağ ol" dedi, zəng vurub babaya da təşəkkür etdi. Mən axşam qızılgül bağının necə göründüyünü ona təsvir etdim. Dedim ki, səhər bağçada cürbəcür rənglər olur, axşam isə qızılgüllərin hamısı eyni cür görünür. O dedi:

– Əslində, bütün rənglərin yaranmasının səbəbi adi ağ işıqdır. Rənglərin hamısı ağ işığın içərisində "gizlənib". Ona görə də ağ işıq olmayanda rənglər də olmur. Yağışdan sonra göydə qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyirəngli zolaq görünür. Bu, göy qurşağıdır. Günəşin şüası yağış damlasından keçəndə ağ işıqda "gizlənən" rənglər üzə çıxıb yeddirəngli zolaq yaradır.

LAYİHƏ

İşığın bu xüsusiyyəti sayəsində təbiət belə əlvan görünür. Yazda, yayda və payızda təbiət al-əlvan olur. Qışda ağappaq qar yağır. Təbiətin bu rəngləri adi ağ işıqdan yaranır. Ağ işıq olmasa, rənglər olmaz.

– Axı təbiət yalnız yeddi rəngdən ibarət deyil? Təbiətdə rəng çoxdur.

– Balaca olanda mən rəsm çəkmək istəyirdim. Cəmi üç rəngim var idi: qırmızı, sarı və mavi. Bu rənglərlə səmanı, səhranı, bir də qırmızı çiçəkləri çəkə bilərdim. Mən isə çox şey çəkmək istəyirdim: qırmızı çiçəyə yaşıl yarpaq, səhrada dəvələr... Üç rənglə bunu necə edə bilərdim?! Anam köməyimə gəldi. O təklif etdi ki, başqa rəngləri almaq üçün əlimdə olan rəngləri bir-birinə qarışdırım. Sarı rənglə mavi rəngi qarışdırdıq: yaşıl rəng alındı! Mən çiçəyin yarpağını rənglədim. Sonra qırmızı rənglə yaşıl rəngi qarışdırıb qəhvəyi, sarı rənglə qırmızı rəngi qarışdırıb narıncı rəngləri aldım. Təbiətdə gördüyümüz əlvanlıq ayrı-ayrı rənglərin bir-birinə qarışmasından yaranır.



***1. Bizim gördüyümüz ağ işıq hansı rənglərin qarışığıdır?***
***2. Ətrafımızdakı varlıqların rəngli görünməsinin səbəbi nədir?***



***“Sehirli disk”***
***Resurslar:***
- ***CD disk***
- ***fənər***
- ***ağ vərəq***

***Ağ vərəqi bir az aralıda diskin qarşısına qoyun. Fənəri yandırıb CD diskin üz tərəfini işıqlandırın. Diski əlinizdə yuxarı-aşağı əydikcə ağ vərəqdə baş verənləri müşahidə edin.***

***Açıqlama: Diskin üz tərəfi güzgü, su damcısı kimi işığı əks etdirir və ağ işıq rənglərə ayrılır.***



LAYİHƏ

# 22. TƏHLÜKƏLİ TƏBİƏT HADİSƏLƏRİ



***Bəzən çox böyük dağıntılar yaradan təhlükəli təbiət hadisələri baş verir. Belə fövqəladə hallar, əsasən, hansı təbiət hadisələri ilə bağlı olur?***

Yerin quru, su və hava təbəqələrində baş verən təbiət hadisələri fövqəladə hallar yarada bilir. Fövqəladə hal zamanı əhalinin sağlamlığına, təsərrüfatlara və təbii mühitə ciddi ziyan dəyir.

Yerin **dərinliyində və üst qatında** gedən proseslər bəzən zəlzələ, vulkan püskürməsi, sürüşmə, sel, uçqun, qar uçqunu, toz fırtınası və digər fövqəladə hadisələrlə nəticələnir.



*Vulkan püskürməsi*



***Yuxarıda sadalanan fövqəladə hallar zamanı baş verən hadisələri sözlə təsvir edin.***



*Zəlzələ*

LAYİHƏ



*Torpaq sürüşməsi*




Yerin **hava təbəqəsində** gedən proseslər tufan, burulğan, qasırğa kimi güclü küləklə müşayiət olunan dağıdıcı hadisələr yarada bilir.



*Qasırğa*

LAYİHƏ

Yerin **su təbəqəsində** də fövqəladə hal yaradan hadisələr olur. Fırtına, güclü dalğalanma dənizdə baş verən təhlükəli təbiət hadisələridir. Sunami adlanan təbiət hadisəsi isə okeanda zəlzələ nəticəsində yaranan nəhəng su dalğasıdır.



*Sunami*

Su ilə bağlı fövqəladə hallar yalnız dəniz və okeanlarda baş vermir. Çaylarda suyun həddən artıq çoxalması, sel, daşqın kimi hadisələr zamanı su yaşayış yerlərini və əkin sahələrini basır.



***1. Təbii dağıdıcı hadisələr təbiətə və insanlara necə ziyan vura bilər?***

***2. Zəlzələ ilə torpaq sürüşməsini, sunami ilə daşqını Venn diaqramında müqayisə edin.***







LAYİHƏ

# CANLILAR ALƏMİ

## 23. MİKROORQANİZMLƏR



***Ətrafımızda adi gözlə görünməyən kiçik canlılar yaşayır. Onlar necə varlıqlardır?***

"Mikro" yunan sözüdür. Mənası "çox kiçik" deməkdir. Mikroorqanizmlər çox kiçik orqanizmlərdir. Onlar suda, torpaqda, havada, insan və heyvan orqanizmlərində yaşayır. Bu canlılar o qədər kiçikdirlər ki, onları yalnız böyüdücü cihazlar vasitəsilə görmək olur.



17-ci yüzillikdə niderlandiyalı Antoni van Levenhuk özü düzəltdiyi mikroskopla gölməçədən götürülmüş su damcısına baxanda orada çoxlu xırda canlılar gördü. Onların bəziləri dəyirmi, bəziləri uzunsov idi. Bəziləri ağır-ağır hərəkət edir, bəziləri balıq kimi o tərəfə, bu tərəfə üzürdü. Levenhuk şüşənin altında gördüklərini kağıza köçürdü. Kiçik canlıları ətraflı təsvir edib, onların şəkillərini çəkdi.

Beləliklə, o vaxtadək insanlara məlum olmayan canlı aləm – mikroorqanizmlər kəşf edildi. Sonralar Levenhukun hazırladığı mikroskopdan yüz dəfə, min dəfə, hətta daha çox böyüdən cihazlar düzəldildi. Bu cihazlarla aparılan müşahidələr göstərdi ki, mikroorqanizmlər saysız-hesabsızdır.



*Antoni van Levenhuk özü hazırladığı mikroskopla müşahidə apararkən*

LAYİHƏ

Bəzi mikroorqanizmlər başqa canlılarda xəstəliklər törədirlər. Angina, vərəm, qarın yatalağı kimi xəstəlikləri mikroorqanizmlər törədir.





*Angina necə xəstəlikdir? Bu xəstəlikdən necə qorunmaq olar?*

Həyatımız üçün gərəkli olan mikroorqanizmlər də çoxdur. Bağırsaqlarımızda xüsusi mikroorqanizmlər yaşayır. Bu canlılar olmasa, həzm prosesi pozular və biz xəstələnərik.

Çürüdücü mikroorqanizmlər də var. Onların fəaliyyəti yer üzündə həyatın davam etməsi üçün çox vacibdir. Yer kürəsində hər gün nə qədər canlı ölür. Bu mikroorqanizmlərin fəaliyyəti sayəsində onların qalıqları çürüyüb torpağa qarışır və bitkilərin yaşaması üçün vacib olan qida maddələrinə çevrilir.



***1. Hansı canlıları mikroorqanizmlər adlandırırlar?***
***2. Mikroorqanizmlərin həyatımızda hansı rolu var? Fikrinizi nümunələrlə izah edin.***
***3. Xəstəlik törədən mikroorqanizmlərdən qorunmaq üçün nə etmək lazımdır?***



***Resurslar:***
- ***güzgü***
- ***salfet***
- ***fərdi dəsmal***

***Güzgünü dəsmalla silin, sonra ağzınıza yaxınlaşdırıb nəfəs verin. Güzgünüzün təmiz olub olmadığını yoxlayın. Onun səthində su damcıları görəcəksiniz. Bu damcılarda çoxlu mikroorqanizmlər yaşayır. Asqıranda, öskürəndə damcılar ətrafa sıçrayıb əşyaların, digər insanların üzərinə düşür. Xəstəliktörədən mikroorqanizmlər bu yolla ətrafa yayılır. Ona görə də bir-birimizi qorumaq üçün heç xəstə olmasaq belə, asqıranda və öskürəndə ağızımızı birdəfəlik salfetlə, yaxud dirsəyimizlə tutmalıyıq.***

LAYİHƏ

# 24. GÖBƏLƏKLƏR



***Göbələklər qəribə canlılardır. Onların həm faydalı qida olduğunu, həm də insanı zəhərləyə biləcəyini deyirlər. Onlar həm xəstəlik törədir, həm də xəstəlikləri müalicə edir.***

Lap əvvəllər göbələkləri də bitki hesab edirdilər. Sonralar alimlər öyrəndilər ki, göbələklərdə həm bitkilərə, həm də heyvanlara aid xüsusiyyətlər var. Ona görə də göbələkləri nə bitkilərə, nə də heyvanlara aid etməyib ayrıca bir aləm kimi ayırdılar. Göbələklər rütubəti sevir. Onlara rütubət çox olan hər yerdə rast gəlmək olar. Göbələklər çox müxtəlifdir. Meşədə, marketdə gördüyümüz göbələklərdən başqa, mikroskopik göbələklər də var.



***Göbələklərin əsas xüsusiyyəti nədir?***

Göbələklərin bir qismindən insanlar qida məqsədi ilə istifadə edirlər.



şampinyon



quzuqarnı göbələyi



qırmızıbaş

***Yeməli göbələklər***

Bütün göbələklərdən qida məqsədi ilə istifadə etmək olmaz. Göbələklərin bəzi növləri çox zəhərlidir.



solğun əzvay



yalançı quzuqarnı



milçəkqıran

***Zəhərli göbələklər***



LAYİHƏ

Zəhərli göbələklərin yeyilməsi kəskin zəhərlənmə, bəzi hallarda isə ölümlə nəticələnə bilər. Düzgün saxlanmadıqda və ya hazırlanmadıqda yeməli göbələklərdən də zəhərlənmək olar. Ona görə də göbələklərlə ehtiyatlı davranmaq lazımdır.

Maya göbələkləri də var. Bu göbələklərdən çörək-bulka məmulatlarının bişirilməsində, pendir, pivə və başqa ərzaq məhsullarının istehsalında istifadə edilir. Bəzi dərman vasitələri göbələklərin iştirakı ilə hazırlanır.

Çörək, meyvə-tərəvəz isti və rütubətli yerdə qaldıqda üzəri yaşıl və ya ağ kiflə örtülür. Bu, kif göbələkləridir. Kiflənmiş ərzaqdan istifadə etmək sağlamlıq üçün təhlükəlidir, çünki bu göbələklər zəhərli maddə əmələ gətirir.

Göbələklərin ziyanlı növləri də vardır. Bunlar ***parazit**** göbələklərdir. Parazit



Kif göbələyi

göbələklər canlılara ziyan vurur, onları xəstələndirir.

Heyvan və insanların dərisində, daxili orqanlarında xəstəliklər əmələ gətirən göbələklər də





*Parazit göbələyin zədələdiyi sünbül və ağac*

---

* **Parazit** – başqa bir varlığın orqanizmi üzərində və ya içində yaşayıb onun hesabına qidalanan canlı

LAYİHƏ



*Parazit göbələyin xəstələndirdiyi insan və qarışqa*



vardır. Bu, göbələk xəstəlikləridir. Göbələk xəstəlikləri ayaqqabı və paltar vasitəsilə xəstə insandan sağlam insana keçir. Ona görə də başqa şəxslərə məxsus ayaqqabı və paltarları geyinmək düzgün deyil.

Çətin sağalan göbələk xəstəliklərindən qorunmaq üçün gigiyena qaydalarına əməl etmək, əlləri tez-tez sabunla yumaq vacibdir. Göbələk xəstəliyi yaranmasın deyə yatmazdan qabaq ayaqları yumaq, corabları hər gün dəyişmək lazımdır.



Bəzi göbələklər çox nəhəng ölçülərə qədər böyüyə bilir. Amerika Birləşmiş Ştatlarının Milli parklarından birində dünyada ən iri göbələk yaşayır. Bu göbələk 1220 futbol meydançası boyda ərazini örtüb. Alimlər hesablamışlar ki, onun bu qədər böyüməsi üçün ən azı 2400 il vaxt lazım olub.



1. ***Göbələklərdən qida vasitəsi kimi istifadə edərkən nə üçün ehtiyatlı olmaq lazımdır?***
2. ***Kif göbələkləri hansı qida məhsullarını zədələyir?***
3. ***Göbələklərin digər canlılarla əlaqəsi haqqında danışın.***
4. ***Göbələk xəstəliklərindən necə qorunmaq olar?***

LAYİHƏ

## 25. AĞAC ƏKMƏYƏ GEDİRİK



***Aşağıdakı mətndə ağac əkməyin qaydaları yazılıb. Öyrənin ki, siz də bu xeyirxah işdə iştirak edəsiniz.***

Günəş şüalarının təsiri ilə yaşıl bitkilərdə fotosintez prosesi gedir və oksigen qazı yaranır. Oksigen qazı canlıların tənəffüs etməsi üçün çox vacibdir.

Uzaq keçmişdə planetimizdə yaşıllıq indikindən dəfələrlə sıx olmuş, meşələr daha geniş əraziləri əhatə etmişdir. Qədim insanlar soyuqdan qorunmaq üçün ağacları qırıb yandırırdılar. Sonralar onlar ev tikmək, mebel düzəltmək, kağız istehsal etmək və başqa məqsədlər üçün meşələri qırdılar. Yaşıllığın azalması Yer planetində həyat üçün təhlükə yaratdı, çünki yaşıllıq azaldıqca havanın tərkibində oksigen qazı da azalır.




*Günəş şüasının təsiri ilə yaşıl bitkilərdə mürəkkəb proseslər gedir. Bu proseslər zamanı bitkilər bizim üçün zərərli olan karbon qazını alıb əvəzində oksigen qazı hazırlayır.*

Bitkilər həm də bir çox canlılar üçün əvəzsiz qida mənbəyidir. Heyvanların xeyli hissəsi yalnız bitkilərlə qidalanır.

Bitkilərin bir çoxu xəstəliklərlə mübarizədə əvəzsiz vasitədir. Belə bitkilərə “dərman bitkiləri”, yaxud “şəfalı bitkilər” deyirlər. Bütün bunlara görə bitkiləri qorumaq lazımdır.



***Bitkilərin daha hansı faydalarını bilirsiniz?***

Bir dəfə müəllimimiz bizə dedi ki, hazırlıq görün, gələn həftə sonu şəhər ətrafına ağac əkməyə gedəcəyik. Şəhərimizin ətrafında yeni yaşıllıq zolağı salınır. Biz də bu xeyirxah işdə iştirak edəcəyik. İsti və rahat geyinin, özünüzlə əlcək götürməyi unutmayın. Çünki torpaqla işləyəcəksiniz. Torpaqla işləyəndə mütləq əlcək geyinmək lazımdır.

Nəhayət, gözlədiyimiz gün gəlib çatdı. Bütün sinif uşaqları toplaşdılar. Mü-

LAYİHƏ



əllim bizi şəhər kənarına gətirdi. Burada çoxlu adam var idi. Hamı ağac əkirdi. Orada müəllimimiz bizə ağac əkməyin qaydalarını öyrətdi. Bu heç də çətin bir iş deyil. Hər bir uşaq qaydaları öyrənib ağac əkə bilər.

Əvvəlcədən qazılmış ləklərdə çuxurlar açmaq, çuxura bir az yumşalmış torpaq tökmək və ağacın köklərini həmin torpağın üzərinə qoymaq lazımdır. Bunu iki nəfər etsə, daha yaxşı olar. Biri ağacı tutur, digəri köklərin ətrafını bellənmiş torpaqla doldurur. Diqqət etmək lazımdır ki, köklərin arasında boşluq qalmasın. Köklərə bərk torpaq yapışmışsa, onu təmizləmək lazımdır. Çünki bu kimi hallar köklərin qidalanmasını çətinləşdirir və onların qurumasına səbəb olur.

Çuxuru çox dərin qazmaq olmaz. Ağacın köklərinin başlandığı hissə torpağın üst qatı ilə eyni səviyyədə olmalıdır. Bu səviyyəni çalanın üstünə qoyulmuş taxta parçasının köməyi ilə müəyyən etmək olar.

Torpağı tökdükcə əllə və ya ayaqla yüngülcə basmaq lazımdır. Ən üst qatı bir az bərk basmaq olar.

Ağacı əkdikdən sonra dərhal sulamaq lazımdır. Onun ətrafında kiçik çala qazır və ora su tökürlər. Yeni əkilmiş ağacın yanına dirək basdırıb bitkini ona bərkitmək lazımdır ki, küləkdən sınmasın. Yeni əkilmiş ağacı havadan asılı olmayaraq sulamaq lazımdır.

Normal inkişaf etməsi üçün ağaclar bir-birindən ən azı 1,5 metr aralı əkilməlidir. İsti havalarda ağac tez-tez sulanmalıdır. Normal havada isə həftədə azı bir dəfə su vermək olar.

Böyüklərə xeyli kömək etdik. Gəzintimiz çox maraqlı keçdi. Bazar ertəsi məktəbə gələndə gördüklərimizi məktəbdəki dostlarımıza danışdıq.

LAYİHƏ




*Ağacəkmənin sxemi*

Sonrakı dərslərimizdə yaşıllığın qorunması haqqında maraqlı layihələr hazırladıq. Müəllimimiz söz verdi ki, bizi tez-tez ağac əkməyə aparacaq.






***1. Günəş şüalarının təsiri ilə yaşıl bitkilərdə hansı proses gedir? Bu prosesin həyat üçün əhəmiyyəti nədir?***
***2. Bitki örtüyünün başqa hansı faydaları vardır?***
***3. Torpaqla işləyəndə nə üçün əlcək geyinmək lazımdır?***
***4. Ağac əkməyin qaydalarını ardıcıllıqla şərh edin.***

LAYİHƏ

# 26. HEYVANLARIN MÜXTƏLİFLİYİ



***Yer üzündə çoxlu sayda heyvan növü var. Bu qədər canlını bir-birindən hansı xüsusiyyətlər ayırır?***

Heyvanlar ən mürəkkəb quruluşa malik canlılardır. Bədəninin daxilində sümük skeletin olub-olmamasına görə heyvanlar *skeleti olan* və *skeleti olmayan* heyvanlara ayrılır. Heyvanlar aləminin çox böyük hissəsini bu cür heyvanlar təşkil edir. Belə heyvanlara qurdları, həşəratları misal göstərmək olar. İlbizlərin də daxili skeleti yoxdur.



*kərtənkələ skeleti*







Bədəni daxilində skeleti olan heyvanlar daha yüksək inkişaf etmiş canlılar hesab olunur. Bu heyvanlar tənəffüs etməsinə, çoxalmasına və bir sıra başqa xüsusiyyətlərinə görə ***balıqlara, suda-quruda yaşayanlara, sürünənlərə, quşlara və məməlilərə*** bölünür.



***Şəkildəki heyvanları necə qruplaşdırmaq olar?***





LAYİHƏ

Balıqlar suda yaşayır. Bədənləri pulcuqlarla örtülü və sürüşkəndir. Balıqların ağciyərləri yoxdur. Onlar sudan çıxan kimi məhv olur. Balıqların əksəriyyəti kürü vasitəsilə çoxalır.



Elə heyvanlar da var ki, həm suda, həm də quruda yaşayırlar. Belə heyvanlara ***amfibilər*** də deyirlər. Suda-quruda yaşayanlar ağciyərləri və dəriləri ilə tənəffüs edirlər. Qurbağa suda-quruda yaşayanların ən geniş yayılmış nümayəndəsidir. Suda-quruda yaşayanlar balıqlar kimi kürü tökməklə çoxalırlar.



İlan, kərtənkələ, tısbağa, timsah ***sürünən*** heyvanlardır. Bütün sürünənlər ağciyərlərlə tənəffüs edirlər. Sürünənlərin çoxu quruda: torpaqda, ağaclarda yaşayır, amma suda yaşayan növləri də vardır. Timsahlar, bir çox tısbağa və ilan növləri suda yaşayır.

Sürünənlər, əsasən, yumurta qoymaqla çoxalırlar.

***Quşlar*** da yumurta qoymaqla çoxalır. Quşların bədəni lələklərlə örtülü olur. Quşlar ağciyərləri ilə tənəffüs edirlər. Ev quşları: toyuq, ördək, qaz da insan tərəfindən əhliləşdirilmiş və uzaq məsafələrə



LAYİHƏ



uçmaq qabiliyyətini itirmişlər. Dəvəquşu, pinqvin vəhşi quşlar olsa da uça bilmirlər.

Bütün ***məməli heyvanlar*** ağciyərləri ilə tənəffüs edirlər, onların bədənləri tüklə örtülüdür. Fil, kərgədan, ayı, aslan, zürafə, inək, at, camış, qoyun, keçi, it, pişik və s. məməli heyvanlardır. Məməlilər yeni doğulan balalarını südlə bəsləyir.

Suda yaşayan canlılar arasında da məməli heyvanlar var. Məsələn, balina və delfin balıq yox, məməli heyvanlardır. Onlar kürü tökmür, yeni doğulan balalarını südlə bəsləyir.











***1. Heyvanlar hansı əlamətlərə görə fərqlənir?***
***2. Daxili skeleti olan heyvanlar hansılardır?***
***3. İnsanı məməlilərə aid etmək olarmı? Nə üçün?***
***4. Öyrəndiklərinizə əsaslanaraq tanıdığınız heyvanları qruplaşdırın.***

| *Balıq* | *Sürünən* | *Quş* | *Məməli* |
|---|---|---|---|
| | | | |

LAYİHƏ

## 27. İNSAN ƏTRAFI NECƏ DƏRK EDİR?

***İnsan digər canlılardan fərqlənir. O, təhsil alır, işləyir, yaradıcılıqla məşğul olur. İnsanın bu fəaliyyətlari onun hansı xüsusiyyətləri ilə bağlıdır?***

Göz, qulaq, dil və burun insanın duyğu orqanlarıdır. Bundan başqa, o toxunmaqla istini soyuqdan, sərti yumşaqdan fərqləndirir.

İnsan gözü ilə ətrafındakı varlıqları, onların rəngini, ölçüsünü, formasını görür. Eşitmə duyğusunun köməyi ilə səsləri bir-birindən ayırır.

İnsanın dili həm də əsas dadbilmə orqanıdır. Dili vasitəsilə o acını, turşu, şirini və başqa dadları bir-birindən ayırır. Burnumuzla ətrafımızdakı qoxuları hiss edirik. Duyğu orqanları insanın ətraf mühiti dərk etməsində mühüm rol oynayır.



LAYİHƏ




İnsanın malik olduğu duyğu orqanları başqa canlılarda da vardır. Bir çox heyvanların görmə və eşitmə qabiliyyəti insandan daha yaxşı inkişaf etmişdir. Məsələn, qartalın uzağıgörmə qabiliyyəti, itin iybilmə qabiliyyəti insanınkından dəfələrlə güclüdür. Amma bütün bu üstünlüklər həmin heyvanları insanlardan daha yaradıcı etmir.

İnsan duyğu orqanlarının köməyi ilə kitab oxuyur. Eşitmə duyğusu sayəsində musiqi dinləyib zövq alır. Qoxubilmə duyğusu ilə gözəl ətirləri hiss edir, həm də bəzi təhlükə əlaməti olan qoxuları alır. Məsələn, yanıq iyi hiss edərkən yanğın təhlükəsi olan yerləri nəzərdən keçirir. Qaz iyi hiss edərkən ehtiyat tədbirləri görür, dərhal qapı-pəncərəni açır. Dadbilmə duyğusu insana cürbəcür dadlı təamlar hazırlamağa kömək edir. İnsan duyğu orqanlarından daha səmərəli və yaradıcı istifadə edir.




Bunun səbəbi nədir?

Bunun səbəbi odur ki, digər canlılardan fərqli olaraq insan ***təfəkkürə**** malikdir. Təfəkkürü sayəsində insan öz fəaliyyətini ardıcıl, nizamla qurur. Başqalarının təcrübəsindən istifadə edir. O hətta görmə, yaxud eşitmə duyğusundan məhrum olsa belə, digər duyğu orqanlarının və təfəkkürünün köməyi ilə ətraf aləmi dərk edir.



*1. İnsan ətraf aləmi nəyin sayəsində dərk edir?*
*2.* **Nitq, fikir, yaradıcılıq** *sözlərindən istifadə etməklə* ***"İnsan yaradıcı varlıqdır"*** *adlı esse yazın .*



***"Ətir çələngi"***

***Böyüklərdən, bacı-qardaşınızdan, yaxud yoldaşlarınızdan müxtəlif qoxulu əşyalardan nümunələr toplamağı xahiş edin. Sonra gözlərinizi bağlayın və əşyaları qoxulamaqla onların nə olmasını müəyyən edin.***
***Qeyd: Siz bu təcrübəni müxtəlif meyvələrlə də apara bilərsiniz.***
***Bu təcrübə ilə siz həm də dadbilmə, toxunma duyğunuzu yoxlaya bilərsiniz.***

LAYİHƏ

* **Təfəkkür** – fikirləşmək, düşünmək bacarığı

# AZƏRBAYCAN – YURDUM MƏNİM




28. Qədim Azərbaycan
29. Azərbaycan Respublikası
30. Azərbaycam Ordusu
31. Qonşularımız
32. Azərbaycanın təbiəti
33. Doğma Xəzər
34. Bol nemətli yurdumuz

LAYİHƏ

## 28. QƏDİM AZƏRBAYCAN

***Azərbaycan torpaqlarında qədim dövrlərdə hansı hadisələr baş verib? Aşağıdakı mətndə Azərbaycan ərazisində uzaq və yaxın keçmişdə baş verən hadisələrdən bəhs olunur.***



*Qədim insanların yallı rəqsi*

***Azıx mağarasının tarixi əhəmiyyətini izah edin.***

Tarixi abidələr keçmişimizi öyrənməkdə bizə kömək edir. Ona görə də hər bir xalq öz tarixi abidələrini qorumalıdır. Azıx mağarası, qədim insanların rəsmləri çəkilmiş Qobustan qayalıqları, Şirvanşahlar saray kompleksi və digər abidələr xalqımızın ***milli-mədəni irsidir****.

Azıx – Azərbaycanda, Xocavənd rayonunun ərazisində yerləşən mağaradır. Bu mağara bütün dünyada ən qədim insan məskənlərindən biri hesab olunur. Azıx adamı Azərbaycan ərazisində yaşamış ən qədim insan idi. Azıx mağarası sübut edir ki, Azərbaycan çox qədim ölkədir.

Azıx mağarasından sonra Bakı yaxınlığındakı Qobustan qayaları da qədim insanların məskəni olub. Onların Qobustan qayalarına cızdığı təsvirlər dövrümüzə qədər gəlib çıxmışdır. Bu rəsmlərdə heyvanlar, qədim insanların ov etməsi, onların yallı rəqsi və başqa səhnələr təsvir olunmuşdur. İndi ***Qobustan Dövlət Tarix və Bədii Qoruğu*** tarixi abidə kimi qorunur.



*Qayaüstü təsvirlər. Qobustan*

***Mədəni irs** – keçmişdən qalmış mədəniyyət nümunələri

LAYİHƏ

Bundan xeyli müddət keçəndən sonra müasir Azərbaycanın yerləşdiyi torpaqlarda qədim Albaniya dövləti mövcud olub. Bu dövlətin hökmdarı Cavanşiri ətraf ölkələrdə çox yaxşı tanıyırdılar.

Albaniya dövlətindən sonra Azərbaycan torpaqlarında müxtəlif adda dövlətlər yaranıb. Bunlardan biri də Eldənizlər dövləti idi. Eldənizlər dövlətində dahi şairimiz Nizami Gəncəvi və böyük Azərbaycan memarı Əcəmi Naxçıvani yaşayıb-yaratmışlar.



*Keçmişdə bazar meydanı*

Daha sonralar Azərbaycanda Səfəvi şahlarının başçılıq etdiyi geniş ərazilərə yayılmış qüdrətli bir dövlət meydana gəlib. Onun yaradıcısı Şah I İsmayıl Xətainin adı tariximizdə həm də böyük şair kimi qalıb.



*Müasir Bakı*

Bundan bir az yaxın keçmişdə Azərbaycanda Şamaxı, Şəki, Qarabağ, Gəncə, İrəvan, Lənkəran, Təbriz, Ərdəbil kimi xanlıqlar olmuşdur. Bakı şəhəri Bakı xanlığının paytaxtı idi. İndi tarixi abidə kimi qorunan İçərişəhərdəki Şirvanşahlar saray kompleksində xan və onun ailəsi, saray əyanları yaşayırdılar.

"O olmasın, bu olsun", "Arşın mal alan" filmlərindəki qoçuların, bəylərin, tacirlərin, çadralı qadınların yaşadığı dövrə gedə bilsəydik, indikindən çox fərqli bir Bakı şəhəri görərdik. Həmin dövrdə Bakıda çoxlu neft və başqa sərvətlər olduğunu öyrənən əcnəbi milyonçular daha da varlanmaq üçün bura gəlirdilər. Yoxsul insanlar da iş tapmaq ümidi ilə bura axışırdı. Bakıda əhali sürətlə artırdı. Çoxlu binalar, zavod və fabriklər tikilirdi. Beləliklə, Bakının siması sürətlə dəyişdi. Bu gün respublikamızın paytaxtı Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir.



***1. Tarixi abidələr nə üçün dövlətimiz tərəfindən qorunur?***
***2. Mətni hissələrə ayırıb hər dövrə uyğun olan adı verin.***
***3. 100 ildən sonra Azərbaycanın şəhər və kəndlərini necə təsəvvür edirsiniz?***

LAYİHƏ

## 29. AZƏRBAYCAN RESPUBLİKASI

***Hər bir dövlətin öz rəmzləri var. Müstəqil Azərbaycanımızın rəmzləri nə zaman yaranmışdır?***

İnsan yaşadığın yeri seçə bilər, ancaq vətəni seçmək mümkün deyil. Azərbaycan Respublikası bizim Vətənimizdir. Biz hər il mayın 28-də Azərbaycan Respublikasının yarandığı günü bayram edirik. Azərbaycan Respublikası 1918-ci ildə yaradılmışdır. Bu dövlət Azərbaycan Xalq ***Cümhuriyyəti**** adlanırdı. Azərbaycan dövlətinin qurucuları Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski və başqaları idi.



*Azərbaycan dövlətinin qurucuları: soldan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli*



*Azərbaycan Respublikasının Dövlət Bayrağı*

Ölkəmizin üçrəngli bayrağı, Dövlət himni, ordusu, bir çox dövlət orqanları Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmışdır.

Azərbaycan dövlətinin qurucuları onun dünya dövlətləri tərəfindən tanınması üçün çox çalışdılar. Azərbaycan Respublikasını dünya dövlətləri tanıyıb qəbul etdi. Dövlətimizin adı dünya dövlətlərinin sırasına yazıldı.

***Dünya dövlətlərinin Azərbaycanı tanımasının əhəmiyyətini izah edin.***

* **Cümhuriyyət** – respublika

LAYİHƏ

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay mövcud oldu. 1920-ci il aprelin 28-də ölkəmiz Sovet Rusiyası tərəfindən işğal olundu və müstəqilliyini itirdi.



*Azərbaycan Respublikasının Dövlət gerbi*

1991-ci il 18 oktyabrda Azərbaycan müstəqilliyini bərpa etdi. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edildi. Ona görə də Azərbaycanda 18 oktyabr əlamətdar gün kimi qeyd olunur.

Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri də bərpa olundu. Üçrəngli bayrağımız müstəqil Azərbaycanın hər yerində dalğalandı.

1919-cu ildə musiqisini Üzeyir Hacıbəyli, sözlərini şair Əhməd Cavadın yazdığı “Azərbaycan marşı” Dövlət himnimiz oldu. Bunun ardınca Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlanmış gerb də müəyyən dəyişikliklərlə təsdiq olundu.

Müasir Azərbaycan dövləti demokratik respublikadır. Dövlətimizə xalq tərəfindən seçilmiş prezident başçılıq edir. Dövlətimizin ərazisi toxunulmazdır. Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini onun Silahlı Qüvvələri təmin edir. Dövlət dilimiz Azərbaycan dilidir. Pul vahidimiz Azərbaycan manatıdır. Qanunlarımızı Milli Məclis qəbul edir. Milli Məclisin deputatları xalq tərəfindən seçilir.



***1. Bayrağımız hansı binaların qarşısında asılır?***
***2. Dövlət gerbimizin təsviri ilə hansı sənədlərdə qarşılaşmısınız?***
***3. Azərbaycanın Dövlət himni hansı tədbirlərdə səslənir?***
***4. “Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir*” adlı təqdimat hazırlayın.***

---

* **Varis** – bir işi davam etdirən, davamçı

LAYİHƏ

# 30. AZƏRBAYCAN ORDUSU



***Azərbaycanın Milli Ordusu nə zaman və hansı şəraitdə yaranmışdır?***

Azərbaycan Xalq Cümhuriyyəti ərazisini və sərhədlərini qorumaq üçün 1918-ci il iyunun 26-da Azərbaycanın Milli Ordusunu yaratdı.



*Səməd bəy Mehmandarov*

Ordunu qurmaq işi bacarıqlı təşkilatçı general Səməd bəy Mehmandarova tapşırıldı. Ona təcrübəli hərbçi general Əli ağa Şıxlinski kömək etdi. Səməd bəy Mehmandarov hərbi nazir, Əli ağa Şıxlinski onun müavini idi.

Azərbaycan dövləti özü hələ yenicə yaranmışdı. Əsgərlər üçün geyim, ərzaq çatışmırdı. Onlar hərbi sahədə təcrübəsiz idilər, o zamana qədər azərbaycanlı əhali orduda xidmət etməmişdi.

Səməd bəy Mehmandarov və Əli ağa Şıxlinskinin böyük səyi nəticəsində Milli Ordumuz təşkil olundu. Ordumuzda pulemyotlar, zirehli avtomobil, qatar, təyyarə və gəmilər var idi.



*Əli ağa Şıxlinski*

Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən sonra Milli Ordumuz yenidən quruldu.

Müstəqilliyin bərpasından sonrakı ilk illərdə Azərbaycan dövləti hələ tam güclənməmişdi. Bundan istifadə edən Ermənistan Respublikası torpaqlarımızın bir hissəsini işğal etdi. Torpaqlarımızı dinc yolla işğaldan azad etmək üçün çalışan dövlətimiz Milli Ordumuzun yenidən qurulması işini davam etdirdi.

Ermənistan Respublikası ərazilərimizi dinc yolla azad etmək istəmədi, əksinə yeni ərazilər ələ keçirməyə çalışdı.



*Azərbaycanın yeni yaranmış ordusunun əsgərləri. 1918-ci il*

2016-cı ilin aprelində Azərbaycan Ordusu növbəti dəfə atəşkəsi pozan düşmənə layiqincə cavab verib bir neçə vacib yüksəkliyi ələ keçirdi. Ermənistan ordusunun əsgərləri bu yüksəkliklərdən kəndlərimizi atəşə tuturdular. Aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun Co-

LAYİHƏ




*Milli Ordumuzun Zəfər gününə həsr olunmuş hərbi paradı*

cuq Mərcanlı kəndinin əhalisi öz doğma kəndlərinə qayıtdı. Aprel döyüşləri Azərbaycan Ordusunun qüdrətli olduğunu sübut etdi və Böyük Qayıdışın başlanğıcı oldu. Düşmənin aramsız təxribatları 2021-ci ilin sentyabrında ikinci Qarabağ müharibəsinin başlanması ilə nəticələndi.



***44 günlük müharibə haqqında məlumat toplayın.***

Ordumuz Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin “düşmənin ayaqlarının altında torpaq od tutub yanmalıdır” sözlərini gerçəkləşdirdi və 44 günlük müharibədə böyük zəfər çaldı. Əsgər və zabitlərimizin yüksəksəviyyəli hazırlığı və xüsusi taktikası düşmənə ağır zərbə vurdu. Xalq–ordu birliyi Azərbaycanın tarixinə şanlı səhifələr yazdı.

Bu gün ordumuzda torpaqlarımız uğrunda canından keçməyə hazır olan Azərbaycan övladları xidmət edir. Ordumuzun gücü əsgər və zabitlərimizin vətənpərvərliyində, qəhrəmanlığında və peşəkarlığındadır.



1. ***Azərbaycan Ordusu nə vaxt və hansı məqsədlə yaranmışdır?***
2. ***Azərbaycan Demokratik Respublikasının Ordusuna ilk dəfə kimlər rəhbərlik etmişlər?***
3. ***Azərbaycan xalqı münaqişələrin həllində nə üçün dinc yola üstünlük verir?***
4. ***“Qəhrəman Ordumuz” adlı esse yazın.***

LAYİHƏ

# 31. QONŞULARIMIZ



***İnsanlar kimi ölkələrin də qonşuları olur. Onlara sərhəd qonşuları deyirlər. Siz Azərbaycanın sərhəd qonşuları haqqında nə bilirsiniz?***

Azərbaycan Respublikası quruda beş ölkə ilə həmsərhəddir. Bunlar Türkiyə Respublikası, Rusiya Federasiyası, İran İslam Respublikası, Gürcüstan və Ermənistan Respublikasıdır.

Azərbaycanlılar duz-çörəyi müqəddəs tuturlar. Qonşuluq etdiyi, çörək kəsdiyi insana xəyanət etməyi ata-babalarımız həmişə günah sayıblar. Ona görə də Azərbaycan Respublikası öz qonşuları ilə mehribanlıq və dostluq şəraitində yaşamağa çalışır.

Şimal qonşumuz Rusiya Federasiyası ərazisinə görə dünyada ən böyük dövlətdir. Rusiyada xeyli soydaşımız yaşayır və işləyir. Bu gün Azərbaycanla Rusiyanı mehriban qonşuluq əlaqələri bağlayır.

İran İslam Respublikasının Azərbaycanla sərhəd ərazilərində qədim zamanlardan azərbaycanlılar yaşayırlar. Azərbaycanla İran arasında mehriban münasibətlər vardır.




*Azərbaycana qonşu dövlətlər*

LAYİHƏ

Gürcüstan vətəndaşı olan azərbaycanlılar da çoxdur. Onlar burada tarixən Borçalı adlanan ata-baba yurdunda yaşayırlar. Azərbaycan dövləti Gürcüstanla dostluq əlaqələri saxlayır.

Türkiyə Respublikası Azərbaycanın ən yaxın dostu, qardaşıdır. Türkiyə haqqında danışanda “biz bir millət, iki dövlətik” deyirik.



*Ermənistan Respublikasında bir nəfər də azərbaycanlının yaşamaması nəyi göstərir?*

Ermənistanda indi bir nəfər də azərbaycanlı yaşamır. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunmuş, əhalinin xeyli hissəsi köçkünə çevrilmiş, minlərlə insan həlak olmuş, yaralanmışdı. Azərbaycan dövləti torpaqları işğaldan dinc yolla azad etmək, köçkünləri doğma yurd-yuvasına qaytarmaq üçün uzun illər çalışdı. Ermənistan Respublikasının rəhbərləri isə danışıqlar yolu ilə torpaqlarımızı azad etmədilər. Ermənistanın işğalçı siyasəti Azərbaycanın mədəni irsinə ciddi ziyan vurdu. Minlərlə soydaşımız həlak oldu. Düşmən ardıcıl təxribatlar törətməklə münaqişəni qızışdırdı. Yeni ərazilər işğal etmək niyyətində olduğunu bəyan etdi. Bütün bunlar Azərbaycan Ordusunun əks hücumuna səbəb oldu. 2020-ci ilin 27 sentyabrında başlayan ikinci Qarabağ müharibəsi Azərbaycan xalqının parlaq qələbəsi ilə başa çatdı. Bütün bunlara baxmayaraq bu gün də Azərbaycan dövləti Ermənistanı sülhə, dinc yanaşı yaşamağa çağırır.



***1. Azərbaycan hansı ölkələrlə qonşudur?***
***2. Azərbaycanın qonşu ölkələrlə münasibətləri haqqında danışın.***
***3. Aşağıda verilmiş pul nişanlarından qonşu ölkələrə aid olanları seçin.***
















LAYİHƏ

# 32. AZƏRBAYCANIN TƏBİƏTİ



***Azərbaycanda hansı nadir bitki və heyvan növləri var? Dövlətimiz Azərbaycanın təbiətini necə qoruyur?***




*Azərbaycan Respublikasının ərazisi*

Azərbaycan Respublikası Avrasiya materikində yerləşir. Respublikamız dağlarla əhatə olunmuşdur. Bunlar Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağlarıdır. Bu dağların arasında Qarabağ, Mil, Şirvan və Muğan düzənlikləri yerləşir.

Azərbaycanın ən böyük çayları Kür və Araz çaylarıdır. Bunlardan başqa, Qanıx, Qabırrı, Samur da Azərbaycanın böyük çaylarıdır.

Azərbaycanın bitki örtüyü zəngindir. Respublikamızda təxminən 4500 bitki növü var. Azərbaycan meşələrində dəmirağac, Eldar şamı, saqqızağacı kimi qiymətli, nadir ağaclar bitir. Dəmirağac 200 ilə qədər yaşayır. Bu bitkiyə "dəmirağac" adını çox möhkəm gövdəsinə görə vermişlər. Əvvəllər ondan körpülərin tikilməsində, maşın və alətlərin bəzi hissələrinin hazırlanmasında istifadə olunurdu.



*Eldar şamı*



*Dəmirağac*

LAYİHƏ



*Bəbir*



*Ceyran*



*Gürzə*



*Ördək*

Meşə, çöl və dağlarımız qiymətli dərman bitkiləri ilə zəngindir. Azərbaycanın müxtəlif bölgələrində biyan, çaytikanı, sumaq, kəklikotu, yovşan, boymadərən, zirə, cirə və başqa şəfalı bitkilər geniş yayılmışdır.

Respublikamızın heyvanlar aləmi də zəngindir. Burada müxtəlif balıq, suda-quruda yaşayan, sürünən, quş və məməli heyvan növləri vardır. Azərbaycanın dağlarında, meşə və çöllərində bəbir, xallı maral, ceyran, ayı, dələ, canavar, tülkü, yenot və başqa heyvanlar yaşayır. Azərbaycanda zəhərli ilanların bir neçə növü vardır. Respublikamızda yaşılbaş ördək, qızılqaz, qara leylək, turac və çoxlu sayda başqa qüş növü yaşayır və qışlayır.

Azərbaycan dövləti bu zəngin heyvanlar aləmini qorumaq məqsədilə qoruqlar, milli parklar və yasaqlıqlar yaratmışdır. Qoruqların ərazisi ciddi mühafizə olunur. Xüsusi icazə almadan kənar şəxslərin qoruq ərazisinə girməsinə icazə verilmir.



***Qoruqlar, yasaqlıqlar və Milli Parklarımız haqqında məlumat toplayın.***

Respublikamızda dövlət təbiət yasaqlıqları, milli parklar da yaradılmışdır. Yasaqlıqlarda və milli parklarda nadir təbiət abidələri mühafizə olunur. Qoruqlardan fərqli olaraq, yasaqlıqlara və milli parklara təbiətə ziyan vurmamaq şərtilə xüsusi icazə almadan da girmək olar. Yasaqlıqlarda istirahət evləri, turizm mərkəzləri tikilə bilər. Burada ov etmək, balıq tutmaq, göbələk yığmaq və mal-qara otarmağa qismən icazə verilir.



***1. Azərbaycan hansı dağların əhatəsində yerləşir?***
***2. Azərbaycanda hansı düzənliklər var?***
***3. Ölkəmizin bitki və heyvanlar aləmi haqqında danışın.***
***4. Azərbaycanda bitən dərman bitkiləri haqqında məlumat toplayın.***

LAYİHƏ

# 33. DOĞMA XƏZƏR

***Xəzəri niyə dəniz yox, göl hesab edirlər? Onun hansı sərvətləri var? Xəzəri hansı təhlükə gözləyir? Suallar ətrafında düşünmək üçün bu mövzu sizə kömək edə bilər.***




*Abşeron yarımadası*

***Xəritədə***
***Abşeron yarımadasını göstərin.***
***Ada və yarımadanın fərqini izah edin.***



*Neft Daşları*

Respublikamız şərqdən Xəzər dənizi ilə əhatə olunmuşdur.

Ərazisi böyük olduğuna və bir çox xüsusiyyətlərinə görə Xəzəri dəniz adlandırırlar. Əslində, Xəzər dünyanın ən böyük gölüdür. Dənizin göldən əsas fərqi bilirsinizmi, nədir? Dənizlər Dünya okeanının hissələridir. Bu o deməkdir ki, dənizlər okeanla ensiz də olsa, su sahəsi ilə birləşmiş olur. Gölün isə Dünya okeanı ilə əlaqəsi olmur. Dənizin suyu duzlu olur. Gölün suyu isə həm içməli, həm də duzlu ola bilər.

Azərbaycanın xəritəsində Xəzərin içərilərinə doğru uzanan Abşeron yarımadası aydın görünür. ***Yarımada*** bir tərəfi quruya birləşmiş, üç tərəfdən su ilə əhatə olunan quru sahəsinə deyilir. Respublikamızın paytaxtı Bakı şəhəri Abşeron yarımadasında yerləşir.

Xəzərdə çoxlu adalar var. Pirallahı Xəzərin ən böyük adasıdır.

Xəzərdə neft yataqları var. Bu yataqlardan neft əldə etmək üçün polad dirəklər üzərində "Neft Daşları" şəhərciyi salınmışdır. Burada insanlar məskən salmışdır. Bu, dünyada ilk belə qəsəbədir.

Xəzərdə nərə, kütüm, siyənək, xanı, kilkə və başqa növ balıqlar var.



LAYİHƏ



Qağayı



*Nərə balığı*



*Kütüm*



*Xəzər suitisi*

Burada nərəkimilərin qiymətli növləri yayılmışdır. Bu balıqların kürüsü çox faydalı qida hesab olunur. Xəzərin sahillərindəki qayalıqlar qağayıların məskənidir. Burada başqa su quşları da yaşayır. Xəzərin sularında dəniz məməlisi olan Xəzər suitisi yaşayır.

Kür çayı Araz çayı ilə qovuşaraq birlikdə Xəzər dənizinə tökülür. Xəzərə tökülən ən böyük çay isə Volqa çayıdır. Bu çaylar özləri ilə şəhərlərin, zavod və fabriklərin çirkab sularını gətirib Xəzərə tökür. Bakı şəhərinin kanalizasiya suları da Xəzəri çirkləndirir. Xəzərdən neft çıxarılması zamanı dənizin sularına xeyli neft qarışır. Suyun çirklənməsi nəticəsində dənizin canlılar aləmi ziyan çəkir. Dənizin suları çirklənməkdə davam edərsə, orada yaşayan canlılar artıq bu sularda yaşaya bilməyib məhv olar.



***1. Xəzərin ölkəmiz üçün faydalarını söyləyin.***
***2. Xəzərin çirklənməsinin qarşısını almaq üçün siz nə təklif edərdiniz?***
***3. Xəzərin adaları haqqında məlumat toplayın.***

LAYİHƏ

# 34. BOL NEMƏTLİ YURDUMUZ



***Azərbaycanın iqlimi hansı bitkilərin yetişməsi üçün əlverişlidir? Ölkəmizin hansı təbii sərvətləri var? Mətni oxusanız, bu barədə məlumat alarsınız***

Azərbaycanın təbiəti gözəldir. Yurdumuzda min bir nemət yetirən münbit torpaqlar var. Azərbaycanda buğda, arpa, çovdar, pambıq, üzüm, çay, limon, zeytun, şəkər çuğunduru, çəltik kimi bitkilər yaxşı inkişaf edir. Bəzi rayonlarda pambıqçılıq, bəzilərində də üzümçülük üçün əlverişli şərait vardır. Lənkəranda ətirli Azərbaycan çayı, limon yetişir. Abşeron zeytunu,ənciri, Quba alması, Göyçay narı ilə məşhurdur. Gədəbəydə keyfiyyətli kartof yetişdirilir.




Azərbaycanın bağ, bostan və tarla bitkiləri



LAYİHƏ

Ölkəmizdə quşçuluq, qoyunçuluq, iribuynuzlu mal-qara bəslənən təsərrüfatlar fəaliyyət göstərir. Balıqçılıq təsərrüfatlarında müxtəlif balıqlar yetişdirilir.

Azərbaycanda tütün, arı və barama təsərrüfatları da geniş yayılmışdır.

Ölkəmizin çoxlu yeraltı sərvətləri, qiymətli metalların zəngin ehtiyatı var. Qızıl, mis, alüminium, civə, dəmir belə sərvətlərdəndir. Daşkəsən yatağından çıxarılan ***filizdən**** cürbəcür metallar əldə edilir.

Azərbaycanda şəfalı su yataqları da vardır. Kəlbəcərdə, Naxçıvanda, Şuşada, Şabranda çıxan bulaq suları müalicə əhəmiyyətlidir. Abşeron göllərinin duzu, Naftalanın nefti, Naxçıvanın duz mağarası müalicəvi xüsusiyyətləri ilə məşhurdur.



***Yeraltı sərvətlərin respublikamız üçün əhəmiyyətini izah edin.***




Azərbaycanın yeraltı sərvətləri

* **Filiz** – tərkibində metal və onun birləşmələri olan faydalı qazıntı

LAYİHƏ

Münbit torpaqları, yeraltı və yerüstü sərvətləri Azərbaycanın güclü bir ölkə olmasına, dövlətimizin daha da möhkəmlənməsinə kömək edir. Azərbaycanın təbii sərvətlərini qorumaq üçün xüsusi dövlət orqanı yaradılmışdır. Həmin dövlət orqanı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyidir.



Palçıq vulkanlarının sayına görə respublikamızın ərazisi dünyada birinci yeri tutur. Vulkanların gili, palçığı və həmçinin buradan əldə edilən su bir çox xəstəlikləri müalicə etmək gücünə malikdir.



***1. Azərbaycanda hansı kənd təsərrüfatı bitkiləri yetişdirilir?***

***2. "Ölkəmizdə yetişdirilən kənd təsərrüfatı məhsulları" adlı cədvəli doldurun.***

| *Bağ* | *Bostan, dirrik* | *Tarla* |
|---|---|---|
| | | |
| | | |

***3. Azərbaycana ən çox şöhrət gətirən hansı faydalı qazıntılardır?***

***4. Azərbaycanda müalicə əhəmiyyətli sulardan hansılarını tanıyırsınız? "Azərbaycanın mineral suları" adlı cədvəli işləyin.***

| *Bölgə* | *Suyun adı* |
|---|---|
| *Naxçıvan* | *Sirab* |
| | |

***5. Azərbaycan təbii sərvətlərinin mühafizəsi üçün hansı işləri görür?***

LAYİHƏ

# DƏYƏRLƏR



35. Biz birlikdə güclüyük
36. Qayda və qanun
37. Dünya dinləri
38. Ailə büdcəsi
39. Xalqların ünsiyyət qaydaları
40. Yay tapşırıqları

LAYİHƏ

## 35. BİZ BİRLİKDƏ GÜCLÜYÜK



***İnsanlar toplum halında yaşayırlar. Bunun onlara faydası nədir?***

Hər ailə, sinif, dərnək, klub, iş kollektivləri kiçik toplumdur. İnsan bu toplumlardan birində, ikisində, bəzən də daha çoxunda iştirak edir. Axı insan ailəsi, dostları, qohumları, qonşuları və başqa xeyirxah insanların əhatəsində yaşayır. Məsələn, o, bir ailənin övladı olmaqdan başqa, bir sinfin şagirdi, bir dərnəyin üzvü olur. Beləliklə, insanlar bir-birinə kömək edir, işlərin öhdəsindən gəlirlər.

İş kollektivlərində birləşən insanlar böyük işlər görür. İnşaatçılar binalar tikir, tibb işçiləri insanların sağlamlığının keşiyində durur, əsgərlər vətəni qoruyur.





***Şəkildə gördüklərinizi izah edin.***

Toplumda yaşlılar bilik və təcrübələrini gənclərə öyrədir. Toplanan bilik və təcrübə bu yolla nəsildən-nəslə ötürülür.

Bir toplumun üzvü olmaq həm də məsuliyyət deməkdir. Məsələn, ailədə xoş münasibətlərin qorunmasında bütün ailə üzvləri məsuliyyət daşıyır. Ailənin nüfuzunu qorumaq da ailə üzvlərinin borcudur. Ailədən biri insanlara ziyan vuran iş görəndə onun doğmaları bundan utanır. Əksinə, faydalı iş görüb ad-san qazananda ailə üzvləri, qohumları onunla fəxr edir. İnsanlar arasında həmin ailənin nüfuzu yüksək olur.



LAYİHƏ





*“Sağlam ailə” ifadəsini izah edin.*

Qarabağ müharibəsində hünər göstərən qəhrəmanların ailə üzvləri Azərbaycanda hər yerdə hörmətlə qarşılanır.



Bu, məktəb, iş və digər kollektivlərə də aiddir. Hər bir insan üzvü olduğu kollektivi təmsil edir. Hər bir şagird öz uğurları ilə sinfinin, məktəbinin, hətta öz məhəlləsinin, şəhərinin adını ucalda bilər, yaxud əksinə. Bütün şagirdlər bu məsuliyyəti hiss etməli, həmişə yaxşı işlər görməyə çalışmalıdırlar.



*1. Birlikdə yaşamağın üstünlüyünü nümunələrlə əsaslandırın.*
*2. İnsanın inkişafında ailənin rolu nədən ibarətdir?*
*3. “Ailədə və məktəbdə nümunəvi olmaq ətrafdakı bütün insanlara faydalı olmaqdır” adlı esse yazın.*

LAYİHƏ

# 36. QAYDA VƏ QANUN



***Qaydalar çoxdur: oyun qaydaları, məktəb qaydaları, təhlükəsizlik qaydaları, ədəb qaydaları və başqa qaydalar var. Qaydalara əməl etmək vacibdir. Qanunlara da əməl etmək lazımdır. Qanunlar qaydalardan necə fərqlənir?***




Müəllimimiz sinfə daxil olanda hamımız ayağa qalxırıq. Bu, məktəb qaydalarından biridir. Uşaqlardan heç biri bu qaydanı pozmur, çünki böyüklər gələndə ayağa qalxmaq hörmət və ehtiram əlamətidir.

Qaydaların insanların həyatında əhəmiyyəti böyükdür. Qaydalar insanlara müəyyən bir şəraitdə necə hərəkət etmək lazım olduğunu göstərir. Qaydalar olmasa, hər kəs öz bildiyi kimi hərəkət edər. Bu isə heç də həmişə yaxşı nəticə vermir.



***Ailədə qaydalara əməl etməyin vacibliyini izah edin.***

Hər bir ailənin, məktəbin, sinfin, hətta həyatın öz qaydaları olur.

Ailədə qaydaları ailə üzvləri yaradır. Bu qaydalara əməl edəndə evdə təmizlik, səliqə-sahman olur. Uşaqlar böyüyür, ailə qurur və bu qaydaları öz ailələrində davam etdirirlər. Beləliklə, bir ailənin qaydaları nəsildən-nəslə ötürülür.

Qaydalar rəsmi və qeyri-rəsmi olur. Ailədəki qaydalar qeyri-rəsmi qaydalardır. Bu qaydalara əməl edilmədikdə ailə içərisində narazılıq yaranır. Məktəb qaydaları

LAYİHƏ

isə rəsmi qaydalardır. Onları məktəb rəhbərliyi yaradır. Məktəb qaydalarına əməl olunması nizam-intizamı qoruyur. Nizam-intizam şagirdlərin yaxşı oxumasına kömək edir. Bu qaydaların pozulması məktəb kollektivinin narazılığına səbəb olur. Ona görə də şagirdlər məktəbin qaydalarına əməl etməyə borcludurlar.



***Məktəb qaydalarını pozmağın nəticələri haqqında danışın.***

Bütün rəsmi qaydalar yazılı şəkildə olur və insanların bu qaydalara əməl etməsi vacib hesab edilir. İnsanlar yaşadıqları, işlədikləri və təhsil aldıqları yerlərdə qaydaları öyrənməli və əməl etməlidir. Qaydaları pozanların hərəkətlərinə münasibət bildirmək, düzgün hərəkət etmədiyini mədəni şəkildə onların nəzərinə çatdırmaq lazımdır.

İnsanların həyatında qanunların da böyük rolu var. Qanunlar yalnız dövlət tərəfindən hamı üçün qəbul edilir. İşləmək, gəzmək üçün gələn əcnəbilər də ölkənin qanunlarını poza bilməz.



***Qanunların əhəmiyyəti nədir?***

Ölkədə vətəndaşların birinci sinfə qəbul olunması, orduya çağrılması, nikah və əmək pensiyası üçün yaş hədləri dövlət tərəfindən qanunla müəyyən edilir. İnsanların həyat və fəaliyyətinin bütün sahələrinə aid qanunlar var. Hər hansı fəaliyyətlə məşğul olmaq istəyən insan mütləq həmin sahəyə aid qanunları bilməli və onlara uyğun hərəkət etməlidir.

Qanunu pozanlar məhkəməyə verilir və cəzalandırılır. Onlar məhkəmənin qərarı ilə cərimə, hətta həbs də oluna bilərlər.



***1. Məktəbinizin qaydalarını sadalayın. Bu qaydaları nə üçün pozmaq olmaz?***
***2. "Mən hansı qaydalara əməl edirəm" adlı cədvəli işləyin.***

| *ailədə* | *həyatdə* | *akt zalında* |
|---|---|---|
| | | |

***3.İnsan qaydanı pozmağa görə necə məsuliyyət daşıyır?***
***4. Qanunu pozmağın hansı nəticələri olur?***
***5. Qayda və qanunu Venn diaqramında müqayisə edin.***




LAYİHƏ

## 37. DÜNYA DİNLƏRİ

***Müasir dövrdə insanlar daha çox hansı dinləri qəbul edirlər? Dinləri bir-birinə yaxınlaşdıran nədir?***

*Allahın bir olduğunu qəbul edən dinlər hansılardır?*

Çox qədim zamanlarda insanlar düşünürdülər ki, onların həyatını tanrılar idarə edir. Qədim yunanlar inanırdılar ki, Günəşi səmaya qaldıran Helios adlı tanrıdır. Dənizi isə Poseydon adlı tanrı idarə edir. O, qəzəbləndə dənizdə fırtına qopur. Qədim yunanlar bu tanrılara sitayiş edir, qurbanlar verirdilər.



*Günəş tanrısı Helios*



*Dəniz tanrısı Poseydon*

***Qədim Yunan tanrıları***

Sonra dünyamızın bir olan Allah tərəfindən yaradıldığına inanan təkallahlı dinlər meydana gəldi. İlk olaraq yəhudi, ardınca xristian, ən sonda isə islam dini yarandı. Bu dinlərə səmavi dinlər də deyirlər. Dünya əhalisinin çoxu səmavi dinləri qəbul edib.

*Dini qəbul etmək nə deməkdir?*

Səmavi dinlərin peyğəmbəri və müqəddəs kitabı var. Peyğəmbərlər Allahın buyurduqlarını insanlara çatdıran şəxslərdir. Onlara Allahın elçisi də deyirlər. Yəhudi dininin peyğəmbəri ***Həzrəti Musa,*** xristianlığın peyğəmbəri ***Həzrəti İsa,*** islamın peyğəmbəri ***Həzrəti Məhəmmədir.***

Mömin insanlar ***"Zəbur" və "Tövrat"ın*** yəhudilərə, ***"İncil"in*** xristianlara, ***"Qurani-Kərim"in*** müsəlmanlara Allah tərəfindən göndərildiyinə inanır. Bu müqəddəs kitablara səmavi kitablar deyirlər.



LAYİHƏ



“Tövrat” – yəhudi dininin müqəddəs kitabı



“İncil” – xristianlığın müqəddəs kitabı



“Qurani-Kərim” – islamın müqəddəs kitabı

*Səmavi kitablar*

Yəhudilik, xristianlıq və İslam dinləri insanları xeyirxah, əxlaqlı olmağa, valideynlərə ehtiram göstərməyə səsləyir. Bu dinlər insanlara öyrədir ki, etdiyi hər hərəkətin nəticəsi insanın özünə qayıdır. İnsan əməllərinin qarşılığını görəcəyini heç zaman unutmamalı, şərdən, pislikdən uzaq olmalıdır.

İslam dininin müqəddəs kitabında yazılıb: “Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz, pislik də”.

Xristianlığın müqəddəs kitabında buna bənzər fikir ifadə olunub: “İnsanların sizinlə necə davranmasını istəyirsinizsə, siz də onlarla elə davranın”.

Yəhudiliyin müqəddəs kitabında da belə fikirlər var: “Hər kəs etdiyi əməlin əvəzini mütləq (mükafatını, yaxud cəzasını) alacaqdır”.

Dünya əhalisinin bir hissəsi də başqa dinləri qəbul edib. Bu dinlərin Allah tərəfindən göndərilmiş peyğəmbəri və kitabı yoxdur. Ona görə də onlara qeyri-səmavi dinlər deyirlər. Qeyri-səmavi dinlər arasında ən geniş yayılan buddizm və induizmdir. Bu dinlərdə də düzlüyə, mərhəmətli olmağa çağırış var.



***1. Təkallahlı dinləri birləşdirən cəhət nədir?***
***2. İslam, xristianlıq və yəhudi dinlərinin müqəddəs kitabları hansılardır?***
***3. Peyğəmbərləri nə üçün həm də Allahın elçisi adlandırırlar?***
***4. Buddizm və induizmin təkallahlı dinlərlə oxşar cəhəti nədir?***

LAYİHƏ

## 38. AİLƏ BÜDCƏSİ



***Ailə büdcəsi nədir? Ailənin üzvləri büdcəni necə yaradırlar?***

Ailə büdcəsi ailə üzvlərinin hamısına aid olan pul vəsaitidir. Onun yaranmasında qazancı olan ailə üzvləri iştirak edir.




Bir ailə təsəvvür edək: bu ailədə ata yazıçıdır. O, əsər yazıb nəşriyyata təqdim edir. Nəşriyyat bu əsəri çap edib əvəzində ataya ***qonorar***, yəni zəhmət haqqı verir. Ana müəllimdir. Məktəbdə işləyir və aylıq ***əməkhaqqı*** alır. Baba və nənə ***əmək pensiyası*** alırlar. Ailənin övladı universitet tələbəsidir. Yaxşı oxuduğuna görə ***təqaüd*** alır. Evə gətirilən bu pullara ***ailənin gəliri*** deyilir. Gəlirinin əsasında ailə öz büdcəsini qurur.

LAYİHƏ



***Ailə büdcəsi necə xərclənir?***

Ailə büdcəsinə toplanan pul ailənin ehtiyaclarına xərclənir. Ailə büdcəsini elə bölüşdürmək lazımdır ki, ailənin xərcləri onun gəlirindən çox olmasın. Xərcləri gəlirinə uyğun olmazsa, ailə borca düşər.

Ailənin büdcəsini necə qorumaq olar?

Ərzaq, geyim, evdə istifadə olunan qaz, işıq, su və digər xərclər ailə büdcəsindən ödənir. Ərzaq lazım olandan çox alınanda artıq qalıb xarab olur. Qazın, suyun, işığın işlənməsinə nəzarət etməyəndə isə ailənin pulu boşuna xərclənmiş olur. Gündəlik ərzağı lazım olandan artıq almamaq, evdə suyu, qazı, işığı boşuna sərf etməmək ailə büdcəsini artıq xərclərdən qoruyur.

Otaqdan çıxarkən işığı söndürmürsünüzsə, əllərinizi yuyandan sonra kranı yaxşı bağlamırsınızsa, ailə büdcənizə ziyan vurursunuz. Bu ziyan hər gün artaraq ailə büdcənizin azalmasına səbəb olur. Məktəb ləvazimatından səliqəli istifadə etmirsinizsə, o, yararsız hala düşür və yenisini almaq lazım gəlir. Bu da ailə büdcəsinə ziyan vurur.

Ailədə xərclərə qənaət edilərsə, ailənin pul ehtiyatı yaranır. Buna ***yığım*** deyilir. Ailə yığımın hesabına mənzili təmir edə, yaxud genişləndirə, avtomobil və başqa qiymətli əşyalar ala, səyahət edə bilər. Yığımın hesabına ehtiyacı olanlara yardım etmək, xeyirxah işlər görmək də olar.

***Azın qədrini bilməyən çoxa çatmaz.***





***1. Ailənin xərcləri onun gəlirini ötərsə, nə baş verər?***

***2. Mətnin sonunda verilmiş atalar sözünün mənasını izah edin.***

***3. Ailənizin birhəftəlik ehtiyaclarını və onları ödəmək üçün lazım olan xərcləri əks etdirən cədvəl qurun.***

LAYİHƏ

# 39. XALQLARIN ÜNSİYYƏT QAYDALARI



***“Salam”. İnsanlar bu sözü dünyanın hər yerində hər gün işlədir. Hər xalqın dilində bu söz ayrı-ayrı səslənsə də, mənası eynidir.***

Salamlaşmaq insanlar arasındakı münasibətləri möhkəmləndirən, onları bir-birinə sevdirən ədəb qaydalarından biridir. Salam verməklə insan qarşı tərəfə öz diqqətini, hörmət və sayğısını göstərir.



*Salamlaşma formaları*

Müxtəlif ölkələrdə ayrı-ayrı salamlaşma qaydaları var. Müsəlman ölkələrində, o cümlədən Azərbaycanda salam verərkən “salaməleyküm”, cavabında isə “əssəlam əleyküm” deyirlər. Bunun da mənası “Allahın sülh və əmin-amanlığı üzərinizdə olsun” deməkdir.

Dünya ölkələrinin əksəriyyətində salamlaşarkən “işlərin necədir?”, yaxud “necəsən?” soruşurlar, cavabı “yaxşı” və ya “normal” olur, “pis” demək isə ədəbsizlik sayılır, çünki belə cavab qarşı tərəfdə xoş əhvali-ruhiyyə yaratmır.

Hindistanda salamlaşarkən əlləri cütləşdirib sinə qarşısında tuturlar. Ərəblər əllərini sinələrinin üstünə qoyurlar. Əgər Avropa ölkələrində salamlaşma çox quru

LAYİHƏ

və qısadırsa, ərəb ölkələrində əksinədir. Bu ölkələrdə salamlaşma "Əhvalın necədir? İşlərin necə gedir?" və bunlara bənzəyən əlavə suallarla uzana bilər. Həmçinin kənar şəxslərin qadınlara müraciət etməsi və ya görüş üçün əl uzatması ədəbsizlik sayılır.

Çində əl sıxaraq görüşmək ən geniş yayılmış görüşmə qaydasıdır. Çində ədəb qaydalarına və adətlərə çox diqqət edirlər. Hədiyyə aparmaq istəsəniz, nəzərə alın ki, onlar kiçik ölçülü əşyaları belə iki əllə təqdim edirlər.

Çinlilərdən fərqli olan yaponlar əl sıxaraq görüşməyi sevmirlər. Onlar salamlaşarkən bir-birlərinə baş əyirlər. Yaponlar qonaqpərvərdirlər. Əgər bir yapon sizi qonaq dəvət etsə, evə girəndə ayaqqabılarınızı çıxarmağı unutmayın. Yaponlar evə ayaqqabılı girməyi sevmirlər.

Hindistana getsəniz, nəzərə alın ki, inək və meymunlar müqəddəs heyvanlar sayılır. Bu heyvanları incitsəniz, hindlilərin qəlbinə toxunmuş olarsınız.

Hər hansı ölkəyə səyahət edərkən orada insanların necə davranmalarına diqqət etmək vacibdir. Bu yolla həmin ölkələrin əhalisi üçün önəmli olan adət-ənənələri öyrənə bilərsiniz. Belə olan halda siz adətləri pozmaz və insanların rəğbətini qazanarsınız, çünki adət-ənənəsinə hörmət ediləndə hər bir xalqın xoşuna gəlir.



***Xalqların ünsiyyət qaydalarına necə yanaşmaq lazımdır?***

***İslamın müqəddəs kitabı "Qurani-Kərim"də yazılıb ki, sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya eynilə sahibinə qaytarın!***





1973-cü ildən başlayaraq hər il noyabrın 21-i Beynəlxalq salamlaşma günü kimi qeyd olunur. Beynəlxalq salamlaşma gününün qaydalarına görə, həmin gün hər kəs qarşısına çıxan şəxsə onu tanımasa belə salam verir.



1. ***Nə üçün bir çox ölkələrdə hal-əhval tutarkən "pisdir" deməyi ədəbsizlik sayırlar?***
2. ***Salamlaşmaq insanın əhvali-ruhiyyəsinə necə təsir göstərir?***
3. ***Hansı xalqın salamlaşma qaydası xoşunuza gəldi? Nə üçün?***
4. ***Salamlaşma qaydalarına aid oyun qurun.***
5. ***Beynəlxalq salamlaşma gününün əhəmiyyəti barədə fikirlərinizi şərh edin.***

LAYİHƏ

# 40. YAY TAPŞIRIQLARI



***Qarşıdan yay tətili gəlir. Hər kəs tətili harada keçirəcəyini, tətil vaxtı nə ilə məşğul olacağını indidən planlaşdırır. Vaxt çox qiymətlidir. Onu faydasız işlərə sərf etmək olmaz.***

Harada olursunuzsa, olun, çalışın ki, tətil boyunca üçüncü sinifdə öyrəndiklərinizi müşahidələrinizlə möhkəmləndirəsiniz. Bunun üçün yay tətili boyunca şəhərinizdə, kəndinizdə müşahidə aparın. Gördüklərinizi yadda saxlayın, ondan nəticə çıxarın.

Çöldə gəzərkən bitkilərə fikir verin. Onların gövdəsini, yarpaqlarını və köklərini nəzərdən keçirib bitkilər haqqında öyrəndiklərinizi xatırlayın. Hansı bitkinin ot, hansının kol, hansının ağac olduğunu müəyyən edin. Bitkilərdən, yarpaqlardan ***herbari**** düzəldin.




*Herbarinin hazırlanması*

Bağlarda, əkin yerlərində görülən işlərə fikir verin. Bitkilərin suvarılmasını, böyüməsini, çiçəkləməsini və meyvə əmələ gəlməsini izləyin. Alaq otlarını böyüklərin köməyi ilə müəyyənləşdirin. Alaq otlarını təmizlədikdə və herbari düzəltdikdə ehtiyatlı olun, çünki elə bitkilər vardır ki, zəhərli olduğu üçün onlara toxunmaq olmaz.

---

* **Herbari** – qurudulmuş bitki kolleksiyası

LAYİHƏ

Su hövzələrində yaşayan canlıları müşahidə edin. Suda hansı bitkilərin bitdiyini öyrənin. Su bitkilərinin quru bitkilərindən fərqini müşahidə edin. Su bitkilərindən də herbari hazırlamağı unutmayın.

Hansı bitkilərin çiçəkləri üzərində arıların olduğunu müşahidə edin.

Gövdəsində bitən göbələklərin ağaca necə ziyan vurduğunu aydınlaşdırmağa çalışın. Böyüklərin köməyi ilə yeməli və zəhərli göbələkləri müəyyən edin.

Gəzinti zamanı valideynlərinizin, səyahətə getmiş olsanız, bələdçinin göstərişlərinə əməl edin.

Başqa ölkələrdə insanların geyim və davranış tərzini, məişətini müşahidə edin. Olduğunuz şəhərlərdə abidələr varsa, onların fotosunu çəkin. Muzeylərə, tarixi yerlərə getməyə çalışın.



*Təbiətin qoynunda*

LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

**HƏYAT BİLGİSİ 3**
Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün
Həyat bilgisi fənni üzrə
**DƏRSLİK**

Tərtibçi heyət:

Müəlliflər *Gülər Ələkbər qızı Mehdiyeva*

Redaktor *Mətanət Kərimova*
Bədii və texniki redaktor *Abdulla Ələkbərov*
Üz qabığı *Təhmasib Mehdiyev*
Rəssamlar *Gündüz Ağayev,*
Korrektor *Günel Məmmədova*

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 8,3. Fiziki çap vərəqi 12,0. Formatı 57x82 1/8.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 96.
Şriftin adı və ölçüsü: jurnal qarnituru 13–16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı–2022.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Nəşriyyat:
**"Aspoliqraf LTD" MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 151)

Çap məhsulunu istehsal edən:

LAYİHƏ

PULSUZ

**Əziz məktəbli!**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



LAYİHƏ